## PREZİDENT İLHAM ƏLİYEV İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib. AZƏRTAC xəbər verir ki, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymi V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edərək "Bakı Prosesi"nin artıq təsisatlanmış bir mexanizmə çevrildiyini söyləyib. Bu gün Azərbaycanın nəqliyyat qovşağı olmaqla yanaşı...



Bax səh. 4

## PREZİDENT İLHAM ƏLİYEV BMT-NİN SİVİLİZASİYALAR ALYANSI ÜZRƏ ALİ NÜMAYƏNDƏSİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosa V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar...



Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 03 may 2019-cu il, cümə / № 080 (5455). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev: Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır



*Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Polşa Respublikasının Prezidenti Andjey Dudaya təbrik məktubu göndərib.

◆ ◆ ◆

Prezident İlham Əliyev Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya təbrik məktubu göndərib.

## V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Qərb ilə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfədir

Müasir dövrdə dünya miqyasında, beynəlxalq münasibətlər sistemində cərəyan edən proseslər və tendensiyalar, eləcə də mövcud reallıqlar sivilizasiyalararası dialoqun strateji zərurət kimi böyük əhəmiyyətə malik olduğunu göstərir. Başqa sözlə, bu gün dünyanın müxtəlif yerlərində siyasi, dini, etnik zəmində müharibələrin çoxalması mədəniyyətlər və sivilizasiyalararası dialoqun təşviqi və inkişafı məsələsinin vacibliyini daha da aktuallaşdırır. Ekspertlərin qənaəti budur ki, belə bir şəraitdə sivilizasiyalararası dialoq, müxtəlif mədəniyyətlər və dəyərlərə malik olan xalqların əməkdaşlığı XXI əsrin strateji prioriteti kimi müəyyənləşdirilməlidir...

Bax səh. 5

## Prezident İlham Əliyev: Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır



Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Bu gün biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə sosial rifah artır. Ümumiyyətlə, ölkələrin taleyi çox acı olur. Azərbaycanda sabitliyin təminatçısı isə...

Bax səh. 4



## NAZİRLƏR KABİNETİNDƏ QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN MƏSKUNLAŞDIĞI BİNALARIN VƏZİYYƏTİNƏ DAİR İCLAS KEÇİRİLİB

Mayın 2-də Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki...

Bax səh. 4

## REGİONLARDA MÜASİR İDMAN KOMPLEKSLƏRİNİN TİKİNTİSİ İSTİQAMƏTİNDƏ İŞLƏR SÜRƏTLƏ DAVAM ETDİRİLİR

Azərbaycanda idmanın inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu kompleks tədbirlərə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən mövcud idman qurğularının qorunub saxlanılması, yenidən qurulması, beynəlxalq standartlara uyğun yeni stadionların, Olimpiya İdman komplekslərinin tikilib istifadəyə verilməsi daxildir. Gənclər və İdman Nazirliyinin maliyyə və maddi-texniki təchizat şöbəsinin sektor müdiri Elmir Mehdiyev AZƏRTAC-a müsahibəsində bildirib ki, son illərdə respublikamızın şəhər və rayonlarında 45 Olimpiya İdman Kompleksi, Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Stend Atıcılığı üzrə İdman Kompleksi və digər iri idman qurğuları tikilib istifadəyə verilib. İdmanın müxtəlif növləri üzrə Azərbaycan milli komandalarının təlim-məşq toplanışlarının...

Bax səh. 8




## AZƏRBAYCAN İLƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ARASINDA YÜKSƏK SƏVİYYƏLİ DOSTLUQ, ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ MÖVCUDDUR

Yerləşdiyi regionun lider dövləti olan Azərbaycan istər siyasi, istərsə də iqtisadi inkişafına görə son illərdə beynəlxalq münasibətlər sisteminin...

Bax səh. 5

## ISESCO-nun Baş direktoru: Mehriban Əliyevanın humanitar sahədəki fəaliyyəti bütün dünyada xanımlar üçün gözəl nümunədir

"Bakı Prosesi"nin tərkib hissəsi olan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dünyanın müxtəlif mədəniyyətləri və dinləri arasında qarşılıqlı anlaşma və əməkdaşlığın təmin olunması baxımından gözəl platformadır. AZƏRTAC xəbər verir ki, bu fikirləri "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Əbdüləziz Osman Əl-Tuveycri deyib. "2011-ci ildən keçirilməyə başlayan bu Forumun uğurlu olmasının əsas səbəbi Azərbaycan rəhbərliyinin ölkələr arasında dialoq, sülh, qarşılıqlı anlayış kimi dəyərlərə, eləcə də müxtəlif mədəniyyətlər və dinlər arasında...

Bax səh. 4

### YAP Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar tədbirlər keçirilib

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının...



Bax səh. 5

### Azərbaycan Dillər Universitetində Türkiyənin Atılım Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib

Mayın 2-də Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Türkiyənin Atılım Universitetinin...



Bax səh. 7

### Türkiyəli nazir: Azərbaycanın son dövrlərdə nəqliyyat sahəsində reallaşdırdığı irimiqyaslı layihələr bizi qürurlandırır

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə indiyədək 184 min ton yük daşınıb. Bunun 17 min 500 tonu Türkiyə ərazisindən...



Bax səh. 6

### Cavanşir Paşazadə: Azərbaycan dünyaya nümunəvi inkişaf modeli təqdim edir

"Azərbaycan iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıraraq dərinməzmunlu sosial siyasət həyata keçirir. Prezident İlham Əliyev dəfələrlə bəyan etdiyi kimi...



Bax səh. 6

# Prezident İlham Əliyev: Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır

## *Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib*

Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edirlər.

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki Foruma Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıblar. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Dövlətimizin başçısı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyib: **"Hörmətli xanımlar və cənablar.**

**Hörmətli qonaqlar.**

**Əvvəlcə Forumun bütün iştirakçılarını salamlayır, bu gün bizimlə birlikdə olduqlarına görə qonaqlarımıza təşəkkürümü bildirirəm. Burada 100-dən artıq ölkədən 500-dən çox qonağımız var. Bu, onu göstərir ki, bu Forum nisbətən qısa zaman ərzində cari gündəlikdə duran mövzulardan biri olan mədəniyyətlərarası dialoqun müzakirəsi baxımından qlobal platformaya çevrilib.**

**Xatirimdədir, 8 il əvvəl ilk forum təşkil ediləndə biz onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik. 2011-ci ildə bizim mədəniyyətlərarası dialoqa həsr edilmiş dünya forumunun təşkil edilməsi təşəbbüsümüz tariximiz, coğrafiyamız və düşüncəmizdən qaynaqlanırdı ki, dünyanı təhlükəsiz etmək üçün biz sivilizasiyalar, mədəniyyətlər və müxtəlif etnik qrup və dinlərin nümayəndələri arasında dialoqun təşviqi sahəsində çox fəal olmalıyıq.**

**Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün Forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir.**

**Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur.**

**Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir.**

**Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir.**

**Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar.**

**Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk. Bilirik ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər var. Ancaq hesab edirəm ki, bizim forum və bu mövzuda Azərbaycanda və dünyanın digər yerlərində təşkil olunan çoxsaylı beynəlxalq tədbirlər multikulturalizm dəyərlərinin təşviqi ilə bağlı səylər göstərdiyimizi aydın nümayiş etdirir.**

**Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq təbirlərə ev sahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq.**












**Əminəm ki, bu gün və sabah Forum çərçivəsində aparılan müzakirələr problemləri aşkar edərək çıxışçılara fikirlərini bildirmək imkanı verməklə yanaşı, tərəfdaşlıq, həmrəylik və əməkdaşlığı gücləndirəcək, nəticədə mədəniyyətlər arasında körpü yaradacaq.**

**Ötən il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd etdik. Bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. Yadımdadır, 2008-ci ildə bu təşəbbüs irəli sürülən kimi, o, dərhal beynəlxalq diqqəti özünə cəlb etdi. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini bir araya gətirdi. 100-dən artıq dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs "Bakı Prosesi" adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir.**

**Həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa təsisatlarına eyni zamanda üzv olan nadir ölkələrdən biri olan Azərbaycan təmasların qurulması və dialoq üçün imkanların yaradılmasında özünün təbii və əminəm ki, müsbət rolunu oynayır. Bizim dialoqa ehtiyacımız var. Mədəniyyət və dinlərarası münasibətlər, siyasi gündəlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələlərində dialoq zəruridir. Forumun adı belə dialoq adlanır. Yəni, biz məhz bunu dünyaya təqdim edirik və bu təşəbbüs geniş beynəlxalq dəstəyə malikdir.**

**Bu gün "Bakı Prosesi" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Əminəm ki, "Bakı Prosesi"nin böyük gələcəyi var.**

**Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir.**

**Bu gün nisbətən gənc müstəqil dövlət olan Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır. Siyasi, iqtisadi, mədəni körpülər, eyni zamanda, praktiki baxımdan da nəqliyyat bağlılığı yaradan körpülər.**

**Ötən il biz müstəqilliyimizin 27-ci ildönümünü qeyd etdik. Bu müddət ərzində Azərbaycan müasir infrastruktura və gələcəklə bağlı aydın baxışa malik, inkişaf edən ölkəyə çevrilib. Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin ərazisini işğal etməsidir. İyirmi beş ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizlənmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində bir milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir.**

**BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onun göstəricisidir ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri uzun illər ərzində icra edilmir. Onların yerinə yetirilmə mexanizmi ya mövcud deyil, ya da tətbiq edilmir. Bunun nəticəsində isə Azərbaycanın torpaqları işğal altında qalmaqdadır.**

**İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə və qərarlar qəbul ediblər. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və münaqişə beynəlxalq hüququn normaları, BMT Nizamnaməsi, Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktına əsasən həll edilməlidir.**

**Bu böyük problem və humanitar fəlakətə baxmayaraq, Azərbaycan müasir ölkəyə çevrilə bilib. Bizim fəal xarici siyasətimiz var. İqtisadi siyasətimiz ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradıb. Xarici siyasət sahəsində Azərbaycan etibarlı tərəfdaşdır. Biz İslam Əməkdaşlığı Təşkilatının fəal üzvüyük. Bizim Avropa İttifaqı ilə yaxın münasibətlərimiz var. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib. Qeyd etdiyim kimi, "Bakı Prosesi" Avropa ilə müsəlman dünyası arasında körpülərin qurulması baxımından bizim töhfəmizdir.**

**Yəni, bizim xarici siyasət gündəliyimiz əməkdaşlığın, tərəfdaşlığın gücləndirilməsi və qarşılıqlı fayda üzərində qurulub. Bizim xarici siyasətimiz bizə əhəmiyyətli beynəlxalq nəqliyyat layihələrini reallaşdırmağa imkan yaradır. Müxtəlif ölkələrlə və tərəfdaşlarla yaxşı əməkdaşlıq olmadan bu layihələrin icrası mümkünsüz olardı. Son illər ərzində bizim iqtisadi inkişafımız enerji layihələrimizə söykənib. Qonşularımız və tərəfdaşlarımızla birlikdə biz şaxələndirilmiş neft-qaz kəmərləri vasitəsilə Xəzər dənizini Qara dənizlə və Xəzəri Aralıq dənizi ilə birləşdirə bildik. Bu isə bizim, qonşularımızın və dünyanın bir sıra ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi deməkdir. Bu gün biz Cənub Qaz Dəhlizinin həyata keçirilməsi üzərində fəal çalışırıq. Bu, artıq yeni miqyasda həyata keçirilən layihədir. O, 7 ölkəni birləşdirir və həmin ölkələrə layihədən faydalanmağa imkan yaradır.**









**Son 15 ildə bizim iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub. Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da bizə ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb. Dünya Bankının sonuncu "Doing Business" hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdə qərarlaşıb. Ölkədə xarici sərmayələr üçün münbit biznes mühiti mövcuddur.**

**Biz xarici borcumuzun azaldılması strategiyası üzərində çalışırıq. O, onsuz da aşağı səviyyədədir - ümumi daxili məhsulumuzun 19 faizi səviyyəsində. Eyni zamanda, biz iqtisadiyyatımızın şaxələndirilməsi, yoxsulluq və işsizliyin tamamilə aradan qaldırılması üzərində çalışırıq. Bu, gündəliyimizdə duran başlıca məsələlərdəndir. Çünki bizim iqtisadi inkişafımız insanlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması ilə nəticələnir. On beş il öncə əhalinin 50 faizi yoxsulluq səviyyəsində yaşayırdı. Bu gün bu göstərici 5-6 faiz səviyyəsindədir.**

**Yoxsulluq, işsizlik, sosial bərabərsizlik və savadsızlıq radikalizmin və ekstremizmin mənbələrindəndir. Azərbaycan beynəlxalq terrorizm, radikalizm və ekstremizmlə mübarizədə çox fəal tərəfdaşdır. Bununla yanaşı, biz dünyada İslam sivilizasiyasının dəyərlərini təbliğ edirik. Biz dünyanın müxtəlif yerlərində öz mədəniyyətimizi və digər tərəfdaş müsəlman dövlətlərinin mədəniyyətini əks etdirən çoxsaylı sərgi və təqdimatlar keçiririk.**

**Bağlılıq haqqında danışarkən istərdim Azərbaycanın iştirak etdiyi nəqliyyat layihələrini xüsusi qeyd edim. Biz bu layihələrə yalnız nəqliyyat bağlılığı kimi baxmırıq. Əslində, bu layihələr regionda ab-havanı dəyişir. Onlar geniş beynəlxalq əməkdaşlıq formatını yaradır. Azərbaycan qədim İpək Yolu üzərində yerləşir. Son illər yaratdığımız müasir nəqliyyat infrastrukturu artıq Azərbaycanı vacib tranzit ölkəyə çevirib. Yaxın qonşularımız və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq olmasa idi, biz tranzit ölkəyə çevrilə bilməzdik. Bunun üçün qonşular və tərəfdaşlar tələb olunur.**

**Nəqliyyat sahəsinə qoyulan sərmayələr avtomatik olaraq regionda daha da proqnozlaşdırıla bilən vəziyyət yaradır ki, burada ölkələr birgə faydalanır. Bizim siyasətimiz əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı fayda vasitəsilə məqsədlərimizə nail olmaq və ölkəni gücləndirməkdən ibarətdir.**

**Enerji təhlükəsizliyi ilə bağlı siyasətimizdə də biz hər zaman istehsalçı, tranzit dövlətlər və istehlakçılar arasında lazımi balansı tapmağa çalışırıq. Burada hər bir tərəf fayda görməsə, uğurdan söhbət gedə bilməz. Biz hər zaman tərəfdaşlarımızın ehtiyacı olduğu vaxt onlara dəstək verməyə hazır olmalıyıq. Eyni zamanda, lazım gəldikdə onlardan da eyni dəstəyi gözləyirik.**

**Azərbaycan, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. Xəritəyə baxsanız Şərqdən-Qərbə, Şimaldan-Cənuba gedən nəqliyyat marşrutlarının ölkəmizin ərazisindən keçdiyini görərsiniz. Buna nail olmaq üçün isə gərgin işləməli olduq. Burada coğrafiya kifayət deyil, bu, yalnız ilkin şərt, zəruri element sayıla bilər. Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırdıq. Beləliklə, bu gün coğrafi və nəqliyyat mərkəzi olmaq baxımından Azərbaycan tərəfdaşlarına çoxlu imkanlar təklif edir.**

davamı 3-cü səhifədə

# Prezident İlham Əliyev: Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır

## *Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib*

əvvəli 2-ci səhifədə

**Əziz dostlar, Azərbaycanda keçirilən bugünkü Forum əlamətdar hadisədir. Bir daha bu Forumda iştirak edən bütün tərəfdaşlar, tərəfdaş təşkilatlar, ziyalılar, alimlər, siyasətçilər, ictimai xadimlər, QHT və media nümayəndələrinə minnətdarlığımı bildirirəm. Əminəm ki, müzakirələr səmərəli olacaq və bunun nəticəsində müvafiq tövsiyələr veriləcək və ölkələrin gələcəyi və regional inkişafla bağlı qərar qəbul edən şəxslər bizim tövsiyələrimizi nəzərə alacaq, beləliklə, dünya daha sabit və təhlükəsiz olacaq.**

**Çox sağ olun".**

* * *

Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olunub.

* * *

Tədbirin moderatoru Forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Qeyd edib ki, "Bakı Prosesi" sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.

* * *





Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos deyib: **"Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti.**

**Hörmətli qonaqlar, xanımlar və cənablar, hörmətli dostlar.**

**Mənim üçün bu cür möhtəşəm Bakı şəhərində olmaq çox fərəhləndirici faktdır. Bu, mənim üçün həm hisslər, həm məsuliyyət ehtiva edən bir faktdır. Hisslər və emosiyalar ona görədir ki, möhtərəm cənab Prezident, mən birinci dəfədir Azərbaycana, Bakıya təşrif buyururam. Buraya BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi kimi gəlmişəm. Məsuliyyət ondan ibarətdir ki, Sivilizasiyalar Alyansı "Bakı Prosesi"nin tərəfdaşıdır. Məhz bu səbəbdən çıxışım, fikirlərim mənim üçün böyük məna kəsb edir. Zənnimcə, V Forumun başlığı açıq-aydın ismarıcı ehtiva edir. Buraya üç açar söz daxildir: dialoq, dialoqun qurulması və fəaliyyət naminə. Mən istərdim üçüncü konsepsiyanı incələyim. Dialoq, fəaliyyət və bunun nəticəsində yaranan alyans və yaxud ittifaq. Mən hesab edirəm ki, bu Forum vaxtında təşkil olunub".**

Forumda müzakirə olunan əsas mövzulardan biri - dünyada baş verən münaqişələr haqqında danışan BMT-nin Ali nümayəndəsi bu problemin kökündə dinin və imanın deyil, dinlə manipulyasiya edərək insanları bir-birinə qarşı qoyan qüvvələrin dayandığını əsaslandırdı. İnsanları bu tendensiyanın yaratdığı zorakı ekstremizmdən və terrorizmdən qorumaq üçün icmaların, beynəlxalq təşkilatların, bütün sülhsevər qüvvələrin birliyinə ciddi ehtiyac olduğunu bildirən Migel Anxel Moratinos bununla bağlı BMT-nin hazırladığı sülh konsepsiyası barədə məlumat verib və "Bakı Prosesi"nin bu konsepsiyaya mühüm töhfələr verəcəyinə əminliyini ifadə edərək deyib: **"Xanımlar və cənablar, zənnimcə, mədəniyyətlərarası dialoqa həsr olunmuş bu forum dünyaya çox açıq-aydın mesaj göndərən bir platformadır. Bu, sülh mesajıdır.**

**Möhtərəm cənab Prezident Əliyev, mən qeyd etməliyəm ki, "Bakı Prosesi", mədəniyyətlərarası dialoqu təşviq edən və sülhü bərqərar edən əsas elementlərə çevrilir. Görürəm ki, bizim işimizdə sinerji və tamamlıq, həmahənglik var. Biz illər ərzində çalışaraq bir-birimizi dəstəkləyirik, bir-birimizin işinə töhfə veririk, tərəfdaşlığımızı gücləndiririk. Əslində, Bakı BMT-nin Sivilizasiyalar Alyansının regional habına çevrilə bilər. Bir daha qeyd etməliyəm ki, müasir, mürəkkəb dünyada biz yeni yanaşmalara möhtacıq. Yeni alyanslar formalaşdırmalıyıq. Biz yeni alyanslar quraraq bu gün işləməliyik.**

**Yekunda, möhtərəm cənab Prezident, icazənizlə vurğulamaq istəyirəm ki, sülh üçün biz müntəzəm səylər göstərməliyik və birlikdə çalışaraq səlahiyyətlərimiz və məsuliyyətimiz çərçivəmizdə nəyəsə nail ola bilərik. İspan dilində çox möhtəşəm bir söz var: "Kombiventiya". Yəni, vahid bir sözdür. Birgə yaşamaq. İngilis dilində "Live in together", İspan dilində "Kombiventiya". "Kombiventiya" "Bakı Prosesi"nin ruhuna aid olmalıdır. Çox sağ olun".**

* * *

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif deyib: **"Cənab Prezident Əliyev, müxtəlif beynəlxalq təşkilatlardan olan qonaqlar, xanımlar və cənablar.**

**Burada yenidən Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən məmnunluğumu ifadə edirəm. UNESCO bu tədbirə yarandığı ilk günlərdən etibarən xüsusi əhəmiyyət verib və cənab Prezidentin burada iştirakı, eləcə də Azərbaycan hökuməti mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın təbliği və təşviqində Bakı Forumu şəklində təsbit edilən bir proqramın həyata keçirilməsində xüsusi rol oynayır. Bu beynəlxalq mədəniyyətlərarası dialoq proqramında çox uzunmüddətli bir hədəf mövcuddur. Biz bu məsafəni birlikdə qət etmişik. Forumun əsasında duran bu konsepsiya bizim hamılıqla və "daha az daha çox olacaqdır" prinsipi ilə çalışaraq daha dolğun bir strukturun yaradılmasına, müxtəlif debat və müzakirələrlə konkret əməli tədbirlər görməyimizə kömək edəcək. Bizim bu V Forumun keçirilməsindən əsas məqsədimiz də baxışlarımızın yenilənmiş innovasiya və ruhun fonunda məhz bu tədbirlərin təsirini və davamlılığını təmin edə bilməkdir. UNESCO da Azərbaycan Respublikasının Hökuməti ilə bu prosesdə yaxından əməkdaşlıq edir".**

Nada Al-Naşif zorakılıq, etinasızlıq, münaqişələr, cəmiyyətlərdəki qütbləşmə, məcburi köçkünlərlə bağlı problemlər və bu qəbildən digər müasir çağırışların qarşısının alınması üçün səyləri birləşdirməyin zəruriliyini vurğulayaraq deyib: **"Bizim əsas məqsədimiz müsbət dəyişiklikləri insan hüquqları və qarşılıqlı hörmət əsasında təbliğ etmək, müsbət istiqamətdə daha ədalətli, inklüziv və dayanıqlı bir cəmiyyət formalaşdırmağa çalışmaqdır. Bu, davamlı inkişaf hədəflərinin də ümdə prinsipləridir ki, bu da heç kəsi arxada qoymamaq prinsipi ilə həmahəngdir. Bütün bunların hamısı müxtəlifliyin hər zaman güc və qüdrət mənbəyi olduğunu nümayiş etdirmək və bunlardan cəmiyyətlərdə hamının bəhrələnməsinə imkan yaratmaqdır. UNESCO-nun da əsas məqsədi qadınların və kişilərin təfəkkürünə sülh prinsiplərini aşılamaqdır. Bir sıra beynəlxalq təşkilatların məqsədi də cəmiyyəti bu hədəflərə doğru irəli aparmaqdır. BMT də 2013-cü ildən bəri icra olunan beynəlxalq onillik proqramında mədəniyyətlərin dialoqunu təşviq edir. Bizim bu 10 illik proqramımız 2022-ci ildə başa çatacaq. Biz artıq nailiyyətlərimizi nəzərdən keçirərək 2022-ci ildən sonra nələr etmək barədə düşünəcəyik. Bu fürsət bizə yeni təşəbbüslərlə çıxış etməyə, illər boyunca topladığımız təcrübəmizi, "Bakı Prosesi"ni bütün maraqlı tərəflərlə birlikdə daha da irəli aparmağa kömək edəcək".**

Nada Al-Naşif mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün UNESCO çərçivəsində təhsil məsələlərinə xüsusi diqqət yetirildiyini, bu istiqamətdə bir sıra praktiki addımların atıldığını vurğulayaraq deyib: **"Bakı Forumunun da əsas prinsipi olan daha səmərəli və daha mütərəqqi dialoq qurmaq üçün biz gücümüzü, qüvvələrimizi birləşdirərək səfərbər etməliyik.**

**Xanımlar və cənablar, biz Bakıya toplaşmaqla məhz əməli tədbirlərin, dinamik inkişafın, sosial-iqtisadi, siyasi mühitin güclənməsinin vacib olduğunu bir daha yəqin etdik. Bu gün konkret tədbirlər görməyimiz, addımlar atmağımız, çeviklik, cəsarət və şücaət göstərməyimiz həmişəkindən daha artıq dərəcədə vacibdir. Beləliklə, daha faydalı, daha mənalı bir dialoq bizim müxtəlifliklərimizi daha yaxşı anlamağa kömək edəcək. Əminəm ki, biz ümumi dəyərlərimiz naminə əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik. Təşəkkür edirəm".**

* * *

Bakı Forumunun mühüm əhəmiyyətini xüsusi vurğulayan İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin deyib: **"Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.**

**Xanımlar və cənablar.**

**Allahdan sizə sülh diləyirəm.**

**Mən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün gözəl Bakı şəhərində yenidən olmaqdan məmnunam. Əvvəlcə, icazə verin, məni dəvət etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə və onun hökumətinə təşəkkürümü bildirim.**

**Əlbəttə ki, bu tədbir Qərb və İslam dünyası arasında mədəniyyətlərarası dialoqun aparılmasına verilən bir töhfədir və onun gücləndirilməsinə yönələn bir addımdır. Təbii ki, bu il keçirilən Forum məhz bizim ümumi əməyimizə əsaslanır, xüsusən də münaqişələrə və radikal ünsürlərə qarşı mübarizənin aparılmasında ümumi cəbhədən çıxış etməyi bizdən tələb edir. Təbii ki, biz bununla mədəniyyətlərarası dialoqun bütün sahələrdə gücləndirilməsi zərurətini müşahidə edirik. İstərdik ki, biz ümumi məxrəcdən çıxış edərək ayrı-seçkiliyin, ksenofobiyanın və ekstremizmin bütün formalarına qarşı birgə mübarizə aparaq. Əlbəttə, hesab edirik ki, bu məqsədə nail olmaq üçün bu və ya digər ölkələr tərəfindən xüsusi səylər tələb olunur. Bu, bizim hamımızın - sivilizasiyaların, cəmiyyətlərin üzərinə böyük öhdəlik qoyur. Buna görə ayrı-seçkiliyə və münaqişələrin aradan qaldırılmasına gəldikdə, hesab edirik ki, vəziyyət yaxşılaşmaqdansa daha da pisləşir, gərginləşir. Görürük ki, bu gün müxtəlif qütblər arasında qarşıdurmalar baş verir".**

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi üçün bütün ölkələrin səyləri birləşdirmələrinin vacibliyini diqqətə çatdıraraq bildirib: **"İslam Əməkdaşlıq Təşkilatı kifayət qədər uzun müddətdə bu istiqamətdə işləyib, fəaliyyət göstərib və digər təşkilatları da bu addımları atmağa, mədəniyyətlərarası dialoqu gücləndirməyə səsləyib. Müxtəlif regionlarla birbaşa əlaqələr quraraq İslam Əməkdaşlıq Təşkilatı bunu aydın şəkildə bəyan edib ki, əməkdaşlığın qarşılıqlı şəkildə aparılması, siyasi və mədəni sahələrdə işbirliyi çox vacibdir. Bu, əslində mədəniyyətlərarası və sivilizasiyalararası anlaşmaya aparan bir yoldur".**

Yusif bin Əhməd Əl Osaymin dünyada mədəniyyətlərarası dialoq şəraitində birgəyaşayışın təmin olunması üçün müvafiq mühitin yaradılmasının zəruriliyinə toxunaraq deyib: **"Xanımlar və cənablar, Zati-aliləri, biz münaqişələrin və qarşıdurmaların, həmçinin bərabərsizliyin aradan qaldırılmasına bu yolla nail ola bilərik. Buna görə bu gün müxtəlif cəmiyyətlərdə onu görürük ki, həmin bərabərsizliklə üzləşən təbəqələr küçələrə çıxır, etirazını bildirir. Təbii ki, göstərilən bu səylərdə hökumətlər daha fəal olmalıdır. Bizim təşkilatımız bir daha bəyan edir ki, qərarları qəbul edən qurumlar, tərəflər arasında daha çox əməkdaşlıq olmalıdır. Əgər söhbət müasir cəmiyyətdən gedirsə, təbii ki, bu dəyərlərdən çıxış edərək insanlar bir-biri ilə yan-yana yaşamağa, dinc şəkildə fəaliyyət göstərməyə vərdiş etməlidirlər.**

**Buna görə biz bütün tərəflər arasında dialoqun tərəfdaşıyıq. İstərdik ki, bundan sonra da bizə yaxın olan tərəfdaşlarımızla, bu kimi tədbirlərdə iştirak edən tərəflərlə hamımız səylərimizi birləşdirərək qarşımızda olan çağırışları anlayaq, onları nəzərdən keçirək və beləliklə, münaqişələrin həllinə və yaxud da qarşıdurmaların yaranmasının qarşısının alınmasına töhfə verək".**

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi rəhbərlik etdiyi qurumun müxtəlif müsəlman ölkələrində mədəniyyətlərarası dialoqla bağlı həyata keçirdiyi tədbirləri diqqətə çatdıraraq bildirib: **"Yekun olaraq bildirmək istəyirəm ki, İslam Əməkdaşlıq Təşkilatı bütün regionlara dialoqun gücləndirilməsi öhdəliyinə sadiqdir və dünyada baş verən hadisələrdən irəli gələrək biz öz proqramlarımıza müvafiq düzəlişləri etməyə hazırıq. Mən hamınıza təşəkkürümü bildirirəm və V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə uğurlar arzulayıram. Çox sağ olun".**

* * *

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni deyib: **"Zati-aliləri möhtərəm cənab Prezident İlham Əliyev.**

**Birinci vitse-prezident xanım Əliyeva.**

**Hörmətli məruzəçilər, xanımlar və cənablar.**

**İlk növbədə, mən qeyd etməliyəm ki, Azərbaycana gəlməkdən böyük şərəf hissi keçirirəm. Azərbaycan bizim zəruri üzv ölkəmizdir. Bizim gənc, dinamik, demokratik dövlətdir. Avropanın bu hissəsində yerləşən bir məmləkətdir. Habelə nəinki mədəniyyətlərarası dialoq, həmçinin məxsusi olaraq müzakirə etdiyimiz mövzu ilə bağlı aparıcı dövlətdir. Odur ki, qeyd etmək istəyirəm, burada - bu Forumda bir daha çıxış etmək mənim üçün böyük fəxrdir.**

**Mən Azərbaycan hökumətinə nəinki bu tədbirin təşkilatçılığına görə öz minnətdarlığımı bildirmək istəyirəm, həmçinin ümumi "Bakı Prosesi"nin təşkilinə görə minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, əvvəlki məruzəçilərin qeyd etdiyi kimi, mən onların fikrini paylaşmaq istəyirəm. Yəni, "Bakı Prosesi" əslində uğur tarixçəsinə çevrilib. Bu proses təhsilə yönəlib. Ekspertlər, mədəniyyətlərarası dialoq sahəsində çalışan mütəxəssislər üçün təcrübələrini, biliklərini və anlayışlarını paylaşmaq üçün müqayisəolunmaz bir fürsətdir. Bildiyiniz kimi, mən bu gün Avropa Şurasını təmsil edirəm. Avropa Şurası mədəniyyətlərarası dialoq sahəsində çalışır və bundan sonra biz böyük nailiyyətlərə imza atmağa çalışırıq.**

**Biz bu prosesə minnətdarıq. Nəyə görə minnətdarıq? Çünki mədəniyyətlərarası dialoq yanaşması həddən ziyadə mühüm və vacibdir. Bu yanaşma yaşadığımız çağdaş mürəkkəb dünya üçün səciyyəvidir".**

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni deyib ki, mədəniyyətlərarası dialoqun təşviq olunması bir anlıq hadisə deyil. Bu, heç vaxt bitməyən bir çağırışdır. Odur ki, bizim qarşımızda dialoqun fəaliyyətə çevrilməsi ilə bağlı məsuliyyətin olduğunu deyən Baş katibin müavini bildirib: **"Mədəniyyətlərarası dialoq, sosial inklüzivlik, habelə azlıq hüquqlarının qorunması həddən ziyadə vacibdir. Yekunda tərəqqi siyasi iradə əsasında təmin olunacaq. Biz bununla bağlı məhz bu hissləri keçiririk. Sizin vasitənizlə, möhtərəm cənab Prezident, biz güclü liderliyi və siyasi iradəni sezə bilirik və bu, bizim planlarımızı irəli apara bilər. Bir faktı qeyd etməliyik ki, biz öz inamımızı və dəyərlərimizi qorumalıyıq. Biz sülh üçün dialoq qurmalıyıq, ləyaqət və qarşılıqlı hörmətə əsaslanan rəğbət göstərməliyik. Bu, bizim fəaliyyətimizə veriləcək qiymətdir. "Bakı Prosesi" məhz buna həsr olunur".**

* * *

ISESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri də Forumun əhəmiyyətinə toxunub. ISESCO-nun İslam aləmində sivilizasiyalararası münasibətlərə töhfə vermək üçün yorulmaz fəaliyyət göstərdiyini qeyd edərək deyib: **"Zati-aliləri, Prezident İlham Əliyev.**

**Hörmətli Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva.**

**Xanımlar və cənablar, Zati-aliləri.**

**Bu gün belə bir mötəbər Forumun açılışında iştirak etməkdən məmnunluq duyuram. Mən hesab edirəm ki, bu, dünyanın ən nüfuzlu tədbirlərindən biridir. 2011-ci ildə bu Forumun təməlini biz Bakı şəhərində qoyduq. O vaxt bildirildi ki, əgər siyasi iradə, öhdəlik, sabitlik olarsa, uğur gələcək".**

Əbdüləziz Osman əl-Tuveycri Prezident İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Dünyada müharibələrin, yoxsulluğun artdığını təəssüflə qeyd edən ISESCO-nun Baş direktoru mənfi meyillərlə mübarizədə təhsilin roluna toxunub. **"Biz insanlara təhsil verməliyik, həm dini, həm də mədəni dəyərlər haqqında onları maarifləndirməliyik",** - deyə Əbdüləziz Osman əl-Tuveycri vurğulayıb. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq deyib: **"Bizim hamımıza məlum olan reallıq ondan ibarətdir ki, Azərbaycanın 20 faiz ərazisi Ermənistanın işğalı altındadır. Bu da beynəlxalq hüququn pozulmasıdır. BMT-nin Təhlükəsizlik Şurasının bununla bağlı qətnamələri var. Azərbaycan sülh, dialoq və qarşılıqlı hörmətə, yanaşmaya əsaslanan ölkədir. Dünya Azərbaycana yardım etmir, dünya Azərbaycana ədalətsiz yanaşır. Ancaq bu torpaqlar yenidən Azərbaycana qovuşmalıdır. Bu, sülhə aparan yoldur, bu, dialoqun uğurlu olmasına aparan yoldur".**

ISESCO-nun Baş direktoru rəhbərlik etdiyi qurumun Azərbaycanın təşviq etdiyi dəyərlərə tərəfdar olduğunu vurğulayaraq bildirib: **"Azərbaycana gəldikdə, ISESCO lap əvvəlcədən Azərbaycanın bu dialoq, hörmət dəyərlərinə tərəfdar çıxıb. Biz öz müxtəlifliyimizi qorumalıyıq, ona hörmətlə yanaşmalıyıq, insanlarımızı qorumalıyıq, dini dəyərlərə sadiq olmalıyıq. Biz bütün bunlara hörmətlə yanaşmalıyıq. Tolerantlıq o deməkdir ki, biz digər düşüncəyə, digər dəyərlərə malik olan insanı qəbul etməliyik. Bu, o deməkdir ki, onlara da hörmətlə yanaşmalıyıq. İstərdik ki, həmçinin bu yanaşma bizə münasibətdə də olsun. Bu, təhlükəsizliyə aparan yeganə yoldur. Bununla əsl dialoq olur, mənalı dialoq olur və zorakı münaqişələrin qarşısı bununla alınır".**

Əbdüləziz Osman əl-Tuveycri deyib ki, İslam sülh və mərhəmət dinidir. Sonda Baş direktor tədbirin təşkilinə görə bir daha prezident İlham Əliyevə minnətdarlığını bildirərək deyib: **"Mən cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bütün iştirakçılar öz ölkələrinə qayıtdıqdan sonra burada aparılan müzakirələrdən nəticə çıxaracaqlar, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsində və ərazi bütövlüyünün bərpa olunmasında ölkənizə dəstək verəcəklər. Arzu edirəm ki, Allahın iradəsi ilə bütün dünyada sülh və rifah bərqərar olunsun. Sağ olun".**

* * *

Sonra insanları sülhə, dialoqa, həmrəyliyə, firavan dünya qurmağa çağıran "Necə gözəl bir dünya" mahnısı ifa edilib.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

* * *





Forum çərçivəsində mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə digər maraqlı tərəflərlə yanaşı, həm də siyasi, iqtisadi, maliyyə, hərbi, humanitar və sosial təşkilatlar arasında tərəfdaşlığın formalaşdırılması üçün beynəlxalq təşkilatların və nazirlərin 2-ci yüksək səviyyəli görüşü nəzərdə tutulub. Eyni zamanda, iki gün ərzində "Akademik Forum: dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması", "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq", "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması", "Sülh naminə çoxtərəflilik və diplomatiya", "Türkdilli ölkələr arasında dialoqun qurulmasında Böyük İpək Yolunun rolu" və digər mövzularda plenar və aralıq sessiyalar keçiriləcək. Həmçinin tədbir günlərində qonaqlar üçün sərgi də açılacaq, musiqili proqramlar təşkil ediləcək.

Beləliklə iki gün ərzində Bakıda müasir dünyanı narahat edən ən aktual məsələlər müzakirə mövzusu olacaq.

Dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu Forum mühüm əhəmiyyət kəsb edir.

# Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib.

AZƏRTAC xəbər verir ki, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymi V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edərək "Bakı Prosesi"nin artıq təsisatlanmış bir mexanizmə çevrildiyini söyləyib. Bu gün Azərbaycanın nəqliyyat qovşağı olmaqla yanaşı, dialoq və əməkdaşlığın da qovşağına çevrildiyini qeyd edən Yusif bin Əhməd Əl-Osaymin Azərbaycanı dinc birgə yaşayışın rəmzi kimi xarakterizə edib.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə Forumda iştirakına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev qonağın Forumun açılış mərasimində söylədiyi fikirlərin əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı "Bakı Prosesi"nin mühüm beynəlxalq platforma olduğunu deyib. Bu prosesin 10 ildən artıq davam etdiyini və bu gün dünyada mədəniyyətlərarası əlaqələrin və dinlərarası əməkdaşlığın qurulmasında ən səmərəli mexanizmlərdən biri kimi tanındığını diqqətə çatdırıb.

Görüşdə İslam dünyasında birliyin və həmrəyliyin vacibliyi qeyd olunub və Azərbaycanın bu istiqamətdə gördüyü işlər təqdir edilib, İslam Əməkdaşlıq Təşkilatının gündəliyində duran məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosa V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq etdiyini vurğulayıb.

2007-ci ildə ATƏT-in fəaliyyətdəki sədri olarkən Azərbaycan Prezidenti İlham Əliyevlə ilk görüşdən danışan qonaq həmin söhbət zamanı Azərbaycanın dövlət başçısının söylədiyi fikirləri bu gün də xatırladığını deyib. Forumun təşkilinə görə minnətdarlığını bildirən Migel Anxel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, "Bakı Prosesi"nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğulayıb. Bildirib ki, bu prosesin coğrafiyasının genişləndirilməsi və Azərbaycanın multikulturalizm ənənələrinin təşviqi böyük əhəmiyyət daşıyır.

Söhbət zamanı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına verdiyi dəstək yüksək qiymətləndirilib.

# Prezident İlham Əliyev Avropa Şurasının Baş katibinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqonini qəbul edib.



AZƏRTAC xəbər verir ki, Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın Avropa Şurasının layiqli üzvü olduğunu bildirərək "Bakı Prosesi"ni Avropa Şurası üçün də uğurlu platforma adlandırıb. 2008-ci ildən bu prosesin genişlənərək mühüm hərəkata çevrildiyini deyən qonaq qeyd edib ki, mədəniyyətlərarası dialoq insanların həyatını dəyişə biləcək vacib prosesdir. "Bakı Prosesi"nin başladığı dövrdən diplomatik münasibətlərdə yenilik, müdrik və cəsarətli addım olduğunu deyən Avropa Şurasının Baş katibinin müavini bu prosesin davamlı olması üçün verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoninin Forumun açılış mərasimində Azərbaycan haqqında söylədiyi fikirləri yüksək qiymətləndirib. Dövlətimizin başçısı Forumda vacib tövsiyələr irəli sürüləcəyinə əminliyini ifadə edib, bu cür önəmli beynəlxalq toplantının mədəniyyət sahəsində körpülərin, dialoqun qurulmasına mühüm töhfə verdiyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olduğunu qeyd edərək ölkəmizin "Bakı Prosesi" vasitəsilə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu təşviq etdiyini bildirib. Hazırkı şəraitdə "Bakı Prosesi"nin coğrafiyasının genişləndirilməsinin zəruriliyini qeyd edən dövlətimizin başçısı Azərbaycanın sivilizasiyalararası dialoqu təşviq etməklə bərabər, sivilizasiyalardaxili dialoqu da dəstəklədiyini deyib.

Görüşdə Avropa Şurasının gündəliyində duran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev: Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır

Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Bu gün biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə sosial rifah artır. Ümumiyyətlə, ölkələrin taleyi çox acı olur. Azərbaycanda sabitliyin təminatçısı isə Azərbaycan xalqıdır. Məhz xalq-iqtidar vəhdəti bu sabitliyi şərtləndirir. Bu vəhdət imkan verir ki, biz uzunmüddətli inkişaf strategiyamızı planlaşdıraq. Bu, imkan verir ki, bu gün Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulur və Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Ona görə bundan sonra da biz elə işləməliyik ki, Azərbaycan daim inkişaf etsin. Mən şübhə etmirəm ki, Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitlik təmin olunacaqdır.




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 83-cü kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2017-ci il noyabrın 14-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin oktyabr-noyabr aylarını əhatə edir.

Kitaba Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Soçi şəhərində keçirilən iclasında, İstanbulda D-8 IX Zirvə görüşündə, Azərbaycan, İran və Rusiya liderlərinin Tehranda keçirilən Zirvə görüşündə çıxışlarının və prezidentlərin mətbuata bəyanatlarla çıxışlarının, Belçikaya işgüzar səfəri zamanı "Şərq tərəfdaşlığı" Sammitinin plenar iclasında "Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir" mövzusunda çıxışının mətnləri daxil edilib.

Nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Bolqarıstan Prezidenti ilə görüşü barədə informasiya, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü, iki ölkə arasında sənədlərin imzalanma mərasimi barədə məlumatlar, dövlət başçılarının mətbuata bəyanatlarla çıxışlarının mətnləri yer alıb.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Çoxcildliyin 83-cü kitabında Prezident İlham Əliyevin Polşa, Ukrayna, İran, Monteneqro, İtaliya, Braziliya, Qazaxıstan və digər dövlətlərin, Avropa İttifaqı, ATƏT, Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası və NATO-nun ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, MDB Sərhəd Qoşunları Komandanları Şurasının Bakıda keçirilən 78-ci iclasının iştirakçılarını qəbul etməsinə dair materiallar toplanıb.

Oxucular bu nəşrdə dövlətimizin başçısının Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, Azərbaycanda 2 milyardıncı ton neftin hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə söylədiyi nitqlərin, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində çıxışının, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə bağlı "Euronews" telekanalının Azərbaycan və Türkiyə prezidentləri və Gürcüstanın Baş naziri ilə müsahibəsinin mətnləri ilə tanış ola bilərlər.

Kitaba, həmçinin Prezident İlham Əliyevin şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyəti ilə görüşündə çıxışının mətni, Bakı Metropoliteninin 50 illik yubileyinə həsr olunmuş mərasimin, Uşaqların IV Ümumrespublika Forumunun iştirakçılarına müraciətlərinin mətnləri, ayrı-ayrı ölkələrin dövlət başçılarına məktubları daxil olunub.

Dövlətimizin başçısının Gəncə şəhərinə, Abşeron, Tərtər və Ağcabədi rayonlarına səfərləri, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla da bu kitabda tanış olmaq mümkündür.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 83-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib



Mayın 2-də Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlətimizin başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.

İclasda paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı binalarda yoxlamalar aparan Fövqəladə Hallar Nazirliyinin arayışı dinlənilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların kommunal problemlərlə üzləşməməsi üçün hazırda aidiyyəti qurumların komitə ilə birgə xüsusi komissiyanın tərkibində işlədiyini bildirib. Sədr komissiyanın artıq bir neçə binaya baxış keçirdiyini və mövcud vəziyyətlə bağlı rəy hazırladığını deyib.

Bu məsələnin dövlətimizin başçısının nəzarətində olduğunu vurğulayan Baş nazirin müavini komissiyaya qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyəti, həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

# ISESCO-nun Baş direktoru: Mehriban Əliyevanın humanitar sahədəki fəaliyyəti bütün dünyada xanımlar üçün gözəl nümunədir

"Bakı Prosesi"nin tərkib hissəsi olan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dünyanın müxtəlif mədəniyyətləri və dinləri arasında qarşılıqlı anlaşma və əməkdaşlığın təmin olunması baxımından gözəl platformadır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Əbdüləziz Osman Əl-Tuveycri deyib.



**"2011-ci ildən keçirilməyə başlayan bu Forumun uğurlu olmasının əsas səbəbi Azərbaycan rəhbərliyinin ölkələr arasında dialoq, sülh, qarşılıqlı anlayış kimi dəyərlərə, eləcə də müxtəlif mədəniyyətlər və dinlər arasında dostluq mühitinin yaradılmasına sadiqliyidir. Məhz bu dəyərlər mədəniyyət və dinlər arasında mövcud anlaşılmazlıqları aradan qaldırmağa kömək edir. Əminəm ki, "Bakı Prosesi" xalqlar arasında əməkdaşlıq və anlaşmanın möhkəmləndirilməsini təmin edəcək, həmin mədəniyyəti formalaşdırmağa təkan verəcək. Təmsil etdiyim ISESCO təşkilatının da bu Forumun təşkilatçılarından biri olduğuna görə qürur duyuram"**, - deyə Əbdüləziz Osman Əl-Tuveycri bildirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bəşəriyyətə xidmət edən bir çox tədbirlərin fəal iştirakçısı olmasını, eyni zamanda, bu tədbirlərin keçirilməsi istiqamətindəki töhfələrini yüksək qiymətləndirən ISESCO-nun Baş direktoru deyib: **"Birinci vitse-prezident Mehriban Əliyeva nəinki ölkə daxilində keçirilən, həmçinin regional və beynəlxalq səviyyəli tədbirlərin fəal iştirakçısıdır. Onun humanitar sahədəki fəaliyyəti, ehtiyacı olan insanlara göstərdiyi diqqət və qayğı nəinki İslam ölkələrində, hətta bütün dünyada xanımların bu zəngin təcrübədən yararlanması üçün gözəl nümunədir".**

# "Bakı Prosesi" on il ərzində fikir mübadiləsi üçün pozitiv platforma yaradıb

"Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu əməkdaşlığın qurulması baxımından mühüm rola malikdir.

Bu fikri AZƏRTAC-a müsahibəsində Forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, İsveçrənin Mədəniyyətlərarası Təhsil, Təlim və Tədqiqat Cəmiyyətinin prezidenti Ann-Klod Lambelet deyib.



O bildirib ki, 2008-ci ildən həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında anlayış, səmimiyyət və qarşılıqlı hörmətə əsaslanan fikir mübadiləsi üçün pozitiv platforma yarada bilib. **"Bu gün biz sessiyamızda sülh mədəniyyətinin təbliğ olunmasını, sülh və inkişafa nail olmaq məqsədilə mədəniyyətlərarası anlaşma və mədəni müxtəliflik məsələlərini müzakirə edirik. İnanıram ki, müzakirələrdən önəmli nəticələr əldə edəcəyik"**, - deyə Ann-Klod Lambelet vurğulayıb.

# Migel Silva: Foruma çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir

Forumun çox zəngin proqramı var. İki gün ərzində bizim müzakirə edəcəyimiz məsələlər beynəlxalq əməkdaşlıq baxımından çox önəmlidir. Forum müxtəlif ölkələrdən olan nüfuzlu alimlərin, siyasi və ictimai xadimlərin bir yerə toplaşaraq mövcud çətinlikləri, problemləri və onların həlli yollarını müzakirə etməsinə imkan yaradır.

Bu fikri AZƏRTAC-a müsahibəsində Forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin Qlobal Təhsil Proqramının meneceri Migel Silva deyib.



O bildirib ki, dünyada şiddətə, zorakılığa qarşı mübarizə aparmaq istəyən, sülh, qarşılıqlı anlaşma uğrunda çalışan insanların sayı durmadan artır. Bakıda təşkil edilən Forumun iştirakçılarının sayı da bunu deməyə əsas verir. Azərbaycan hökuməti tərəfindən builki Foruma dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir. Bu Forum dünyanı narahat edən çağırışların həlli yollarını tapmaqla bağlı səmərəli müzakirələrin aparılması baxımından xüsusi əhəmiyyət daşıyır.

# V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Qərb ilə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfədir

## *Azərbaycan mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biridir*




Müasir dövrdə dünya miqyasında, beynəlxalq münasibətlər sistemində cərəyan edən proseslər və tendensiyalar, eləcə də mövcud reallıqlar sivilizasiyalararası dialoqun strateji zərurət kimi böyük əhəmiyyətə malik olduğunu göstərir. Başqa sözlə, bu gün dünyanın müxtəlif yerlərində siyasi, dini, etnik zəmində müharibələrin çoxalması mədəniyyətlər və sivilizasiyalararası dialoqun təşviqi və inkişafı məsələsinin vacibliyini daha da aktuallaşdırır. Ekspertlərin qənaəti budur ki, belə bir şəraitdə sivilizasiyalararası dialoq, müxtəlif mədəniyyətlər və dəyərlərə malik olan xalqların əməkdaşlığı XXI əsrin strateji prioriteti kimi müəyyənləşdirilməlidir. Bu məqamda vurğulamaq yerinə düşər ki, Cənubi Qafqaz regionunun lider dövləti olan, yüksək nüfuza malik Azərbaycan öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin, multikulturalizmin təbliği və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir.

Azərbaycan sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Mayın 2-də paytaxt Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında işə başlayan V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da bu kontekstdə mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir, tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmiləri iştirak edirlər. Ümumiyyətlə, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bəşəriyyət üçün aktual olan qlobal əhəmiyyətli məsələlərin aktiv və səmərəli müzakirə platformasıdır.

Vurğuladığımız kimi, Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər sivilizasiyalararası dialoqun inkişafına mühüm töhfələr verir. Bu kontekstdə "Bakı Prosesi"nin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Xatırladaq ki, 2008-ci ilin 2-3 dekabr tarixində təşkil olunan Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 İslam ölkəsi dəvət edilib, beləliklə, mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olunub. Bu konfransda "Mədəniyyətlərarası dialoqun təşviqinə dair "Bakı Bəyannaməsi" qəbul edilib. "Bakı Bəyannaməsi" ilə sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı Prosesi"nin və bu prosesin inkişafına hədəflənmiş "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyulub. 2010-cu il sentyabrın 23-də BMT Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edilib. 2011-ci ilin 7-9 aprel tarixində isə Bakıda UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və ISESCO-nun tərəfdaşlığı ilə 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunub.

Ümumiyyətlə, "Bakı Prosesi" çərçivəsində bu zamana qədər çoxsaylı mötəbər beynəlxalq tədbirlər keçirilib. Azərbaycanın Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətləri arasında əməkdaşlıq üçün unikal platforma olan "Bakı Prosesi"ni uğurla davam etdirməsi beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün "Bakı Prosesi" BMT-nin dörd ixtisaslaşmış beynəlxalq təşkilatının tərəfdaşlıq etdiyi yeganə platformadır. Bu fakt 2017-ci ildə BMT-nin baş katibi tərəfindən xüsusi qeyd olunub, daha sonra isə BMT-nin qəbul etdiyi qətnamədə əksini tapıb. Bütövlükdə, Azərbaycanın təşəbbüsü ilə başlanan "Bakı Prosesi" dünyada yeganə genişmiqyaslı əməkdaşlıq formatı olmaqla bərabər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun inkişafına fundamental töhfələr verir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da dünya miqyasında mədəniyyətlərarası dialoqun əhatə dairəsini genişləndirərək xalqlar arasında qarşılıqlı anlaşmanın dəstəklənməsinə xidmət edən mühüm beynəlxalq platformadır. Əminliklə söyləmək olar ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da sivilizasiyalararası dialoqun inkişafına müstəsna töhfələr verəcək.

Forum zamanı səsləndirilən fikirlər Azərbaycanın dünyanın multikulturalizm mərkəzlərindən biri və tolerantlıq nümunəsi kimi yüksək nüfuza malik olduğunu, bu kontekstdə dünyaya mütərəqqi dəyərlər təqdim etdiyini bir daha göstərir. Ümumiyyətlə, Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşaması beynəlxalq müstəvidə də olduqca yüksək qiymətləndirilir. Tarixin bütün dövrlərində Azərbaycanın dini, milli və mədəni dəyərlərə və müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların mənsublarına münasibətinə görə, sözün əsl mənasında, tolerantlıq nümunəsi olması aşkar reallıqdır. Sevindirici haldır ki, bu gün də bu reallıq müşahidə edilir.

Yeri gəlmişkən, V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyən Prezident İlham Əliyev deyib ki, Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır.

Bunlarla yanaşı, ölkəmizdə multikulturalizm dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycanın timsalında, sözün əsl mənasında, multikulturalizmin təntənəsi və nümunəsi müşahidə edilməkdədir. Azərbaycan təcrübəsi onu deməyə əsas verir ki, multikulturalizmin alternativi yoxdur və bu, mədəniyyətlər, sivilizasiyalararası dialoqun, xalqlararası əlaqələrin inkişafına özünəməxsus töhfələr verir. Xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşayış ənənələri dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsində və inkişafında nümunə kimi göstərilir. Yeri gəlmişkən, bəhs olunan çıxışı zamanı **"Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir"** deyən Prezident İlham Əliyev 2016-cı ilin Azərbaycanda multikulturalizm, 2017-ci ilin isə İslam həmrəyliyi ili elan edildiyini bildirib.

Forumda qeyd olunub ki, dünyada multikulturalizmin tendensiya halını alması beynəlxalq səviyyədə sülhə, tərəfdaşlığa vacib töhfə olardı. Bu baxımdan, multikulturalizm və bu yöndə Azərbaycanda keçirilən digər silsilə beynəlxalq tədbirlər mühüm əhəmiyyət kəsb edir.

Qeyd etdiyimiz kimi, Azərbaycanın qlobal əhəmiyyətə malik olan mühüm məsələlərin müzakirə edildiyi nüfuzlu beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi, mədəniyyətlər, sivilizasiyalararası dialoqa fundamental töhfələr verməsi beynəlxalq müstəvidə çox yüksək qiymətləndirilir. Elə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda səsləndirilən fikirlər də bunu bir daha təsdiqləyir. Məsələn, UNESCO-nun Baş direktorunun müavini Nada Al-Naşif dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və Azərbaycanın xüsusi rolunun olduğunu vurğulayıb. İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin isə diqqətə çatdırıb ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfədir. Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni isə deyib ki, Azərbaycan mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biridir.

Beləliklə, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu sivilizasiyalar, mədəniyyətlərarası dialoqun mühüm rolunun öyrənilməsi, təbliği və təşviqi baxımından xüsusi əhəmiyyətə malikdir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında yüksək səviyyəli dostluq, əməkdaşlıq əlaqələri mövcuddur

## *Səudiyyə Ərəbistanı Krallığı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini əsas götürərək Ermənistanla diplomatik əlaqələrin qurulmasından imtina edib və birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir*




Yerləşdiyi regionun lider dövləti olan Azərbaycan istər siyasi, istərsə də iqtisadi inkişafına görə son illərdə beynəlxalq münasibətlər sisteminin mühüm aktorlarından birinə çevrilib. Ümumiyyətlə, Azərbaycan dövləti işğalçı Ermənistan istisna olmaqla bütün ölkələrlə və beynəlxalq qurumlarla ikitərəfli və çoxtərəfli əlaqələrə malikdir. Dünya ölkələri tərəfindən də yaxın tərəfdaş qismində qəbul edilən Azərbaycan öz milli maraqları çərçivəsində hər zaman əməkdaşlığa hazır olduğunu bildirib.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası tarixən dini və mədəni köklərlə bağlı olduğu ərəb ölkələri ilə də ikitərəfli və çoxtərəfli əlaqələrə böyük əhəmiyyət verir. Bu əlaqələrdə İslam aləminin və ərəb dünyasının lider ölkələrindən biri olan Səudiyyə Ərəbistanı Krallığı xüsusi yerə malikdir. Xatırladaq ki, Səudiyyə Ərəbistanı Krallığı yenidən müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasını 1991-ci il dekabrın 30-da tanısa da, iki ölkə arasında diplomatik əlaqələr 24 fevral 1992-ci ildə qurulub. Səudiyyə Ərəbistanı Krallığı ilə əlaqələrinə verdiyi əhəmiyyətin göstəricisi kimi artıq 1994-cü ildə Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlayıb. Səudiyyə Ərəbistanı Krallığı isə ilk əvvəl Türkiyədəki səfirini, eyni zamanda, Azərbaycana akkreditasiya edib, 2000-ci ildən isə bu ölkənin Bakıda səfirliyi fəaliyyətə başlayıb. Vurğulanmalıdır ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 9-13 iyul 1994-cü il tarixlərində Səudiyyə Ərəbistanı Krallığına səfəri iki ölkə arasındakı əlaqələrin hərtərəfli inkişafı üçün dönüş nöqtəsi olub. Ulu Öndərimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iki ölkə arasındakı əlaqələrin inkişafına həmişə xüsusi diqqət yetirib. Bunu ölkə Prezidentinin Səudiyyə Ərəbistanı Krallığına 2 rəsmi, 3 işgüzar səfəri də təsdiqləyir. Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına 5-7 aprel 2015-ci il tarixlərində etdiyi rəsmi səfər iki ölkə arasındakı münasibətlərin inkişafında və qardaş ölkələrimizin daha da yaxınlaşmasında xüsusi rol oynayıb. Ümumiyyətlə, iki ölkə arasındakı yüksək səviyyəli siyasi əlaqələr müxtəlif səviyyəli qarşılıqlı səfərlərin intensivliyi ilə xarakterizə olunur.

İki dövlət arasındakı əlaqələrin ən mühüm nöqtələrindən biri də Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan ərazilərinin işğal olunmasına - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətidir. Belə ki, bu münasibət iki ölkə arasındakı əlaqələrin real mahiyyətini nümayiş etdirən ən mühüm məqam kimi diqqəti cəlb edir. Hərbi münaqişənin ən gərgin vaxtlarında Səudiyyə Ərəbistanı Krallığı tərəfindən azərbaycanlı qaçqın və məcburi köçkünlərə göstərilmiş humanitar yardımlar Azərbaycan üçün böyük məna daşımaqla yanaşı, dost və qardaş Səudiyyə Ərəbistanı Krallığının nümayiş etdirdiyi İslam həmrəyliyinin ən ciddi nümunəsidir. Səudiyyə Ərəbistanı Krallığı məhz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini əsas götürərək Ermənistanla diplomatik əlaqələrin qurulmasından (rəsmi Yerevanın ardıcıl cəhdlərinə baxmayaraq) imtina edib. Bu siyasət bu gün də davam edir. Nəzərə almaq lazımdır ki, bu məqam İslam aləmində, o cümlədən ərəb dövlətlərində ictimai rəyin formalaşmasına güclü təsir göstərir. Beynəlxalq təşkilatlar, xüsusilə BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü ilə bağlı qətnamələrin qəbul edilməsində (məsələn, 14 mart 2008-ci ildə BMT Baş Assambleyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməyə dair keçirilmiş səsvermə) Səudiyyə Ərəbistanı Krallığı daim Azərbaycanın mövqeyini birmənalı dəstəkləyib, 2016-cı ilin aprel ayında İstanbulda keçirilmiş İƏT Sammiti Konfransının 13-cü sessiyası zamanı Ermənistan-Azərbaycan münaqişəsi üzrə kontakt qrupunun təsis edilməsində fəallıq nümayiş etdirib. Azərbaycan Respublikasının 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin Səudiyyə Ərəbistanı Krallığı tərəfindən dəstəklənməsi, Azərbaycan Respublikasının Prezidentinin 20-21 may 2017-ci il tarixlərində Ər-Riyadda keçirilmiş Ərəb-İslam-Amerika Sammitində iştirakı iki ölkə arasında çoxtərəfli səviyyədə əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsidir.

İki ölkə arasındakı siyasi əlaqələrin yüksək səviyyəsi digər sahələrdə də əməkdaşlığın hərtərəfli inkişafına imkan yaradıb. 2000-ci ildən Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiya fəaliyyət göstərir. Komissiyanın fəaliyyəti nəticəsində ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlərini tənzimləyən hüquqi-normativ bazanın çərçivəsi daha da genişləndirilib, iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, investisiya qoyuluşu və s. sahələrdə əhəmiyyətli layihələr həyata keçirilib. Komissiyanın 2019-cu ilin martında Bakıda keçirilmiş 5-ci iclasında digər məsələlərlə yanaşı, ikitərəfli investisiya əlaqələrinin genişləndirilməsi üzrə çərçivə əməkdaşlığı proqramı da imzalanıb.

2016-cı ilin fevral ayının 1-dən Səudiyyə Ərəbistanı Krallığının vətəndaşlarının sadələşdirilmiş viza rejimindən istifadə etməklə Azərbaycanın istənilən hava limanından viza əldə etmələri Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı ilə münasibətlərə verdiyi əhəmiyyətin göstəricisi olmaqla yanaşı, iki ölkə arasında turizm sahəsində əməkdaşlığın gücləndirilməsinə şərait yaradıb. 2016-cı ildə Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn turistlərin sayı 7463 nəfər olduğu halda, 2017-ci ildə bu göstərici 33 min 273 nəfərə, 2018-ci ildə isə 73 min nəfərə çatıb.

İki ölkə arasında yeni və mühüm əməkdaşlıq istiqamətlərindən biri də hərbi sahədə əməkdaşlıqdır. 2017-ci ilin aprelində Azərbaycan Respublikasının müdafiə nazirinin Səudiyyə Ərəbistanı Krallığına səfəri, 2018-ci ilin fevralında Səudiyyə Ərəbistanı Krallığının Müdafiə Nazirliyinin nümayəndə heyətinin Azərbaycana əməkdaşlıq əlaqələrinin müzakirəsi baxımından əhəmiyyətli olub. Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 2019-cu ilin aprelində Səudiyyə Ərəbistanı Krallığına səfəri zamanı "Azərbaycan Respublikası hökuməti və Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Eləcə də 2017-ci ili "İslam həmrəyliyi ili" elan edən, 4-cü İslam Həmrəyliyi Oyunlarına ən yüksək şəkildə ev sahibliyi edən Azərbaycan Səudiyyə Ərəbistanı Krallığı ilə əlaqələrinin daha da inkişaf etdirilməsində maraqlıdır. Səudiyyə Ərəbistanı Krallığının məscidləri, İslam mədəniyyəti abidələrini dağıdan Ermənistanla heç bir səviyyədə əlaqələrin qurulmamasına dair mövqeyi də Azərbaycanın bu məramı ilə həmahəngdir.

**Pərviz SADAYOĞLU**

# YAP Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar tədbirlər keçirilib






Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Qaradağ rayon təşkilatının Neftçi nəqliyyatçı, 4 saylı BUX, Lökbatan bələdiyyəsi, Lökbatan qəsəbə nümayəndəliyi, Ə.Əmirov adına NQÇİ, 180, 223, 321 saylı tam orta məktəb, Su-kanal idarəsi, SOCAR Təlim-Tədris Mərkəzi, poçt idarəsi, DSMF və digər təşkilatlar üzrə ərazi ilk partiya təşkilatlarında tədbirlər keçirilib. Tədbirlərdə YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov, rayon təşkilatının sədr müavini Munis Bayramov, aparat rəhbəri Hacı İbrahimov, baş məsləhətçi Ramiz Yusubov, İdarə Heyətinin üzvləri Nəzakət Məmmədova, Ramin Quliyev, Nərman Qurbanov, Gənclər Birliyinin sədri Seyidməmməd Məmmədzadə və digərləri iştirak ediblər.

Tədbirlərdə millət vəkili Aydın Hüseynov çıxış edərək Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən danışıb. Onun sözlərinə görə, Azərbaycanın yeni tarixinin bütöv bir mərhələsi bilavasitə dünya səviyyəli siyasətçi və dövlət başçısı, zəmanəmizin bənzərsiz şəxsiyyəti Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimizin adı özünü azərbaycanlı sayan hər bir kəsin qəlbində sadəliyi, səmimiyyəti, alicənablığı, vətənpərvərliyi və bütün digər yüksək insani keyfiyyətləri ilə unudulmaz izlər buraxıb: **"Bu dahi insanın həyat və fəaliyyəti doğma xalqına və torpağa məhəbbət və sədaqət meyarı olub".**

Aydın Hüseynov qeyd edib ki, Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən Ulu Öndər ölkəni xaos və böhrandan qurtardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, ölkədə siyasi sabitlik yaratdı. Ulu Öndər Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi, uzaqgörənliyi nəticəsində digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də genişmiqyaslı islahatlar həyata keçirilib. Ümummilli Liderin davamlı və dayanıqlı, sosialyönümlü və innovativ iqtisadiyyatın formalaşması istiqamətində həyata keçirdiyi strategiya, o cümlədən neft, aqrar islahatlar, özəlləşdirmə, regionların tarazlı inkişafı siyasəti, sahibkarlığın inkişafı, infrastrukturun, yeni istehsal sahələrinin yaradılması, nüfuzlu beynəlxalq maliyyə institutları ilə əlaqələrin qurulması kimi kompleks tədbirlər sonrakı illərdə ölkə iqtisadiyyatının dinamik inkişafı üçün möhkəm zəmin yaradıb.

Digər çıxışçılar da Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinin müstəqilliyinin qorunması, dövlətimizin inkişafı istiqamətində qlobal fəaliyyətini diqqətə çatdırıblar. Natiqlər Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin ayrı-ayrı sahələrinə, Onun ölkəmizin müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi, inkişafı istiqamətində gördüyü işlərə, Ümummilli Liderin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilən siyasətin uğurlarına, perspektivlərinə toxunublar.

# Heydər Əliyev Fondu Ağdamda konsert proqramı təşkil edib

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin doğum günü və Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə mayın 2-də Ağdamda konsert keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, konsertdə xalq mahnıları, muğam ifaları və rəqslər təqdim edilib. Tanınmış müğənnilərlə yanaşı, gənc ifaçılar da tamaşaçılar qarşısında çıxış ediblər.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin doğum günü və Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə mayın 3-də Şəkidə, mayın 4-də Gəncədə, mayın 5-də Xaçmazda, mayın 6-da Şamaxıda, mayın 7-də isə Lənkəranda və Naxçıvanda konsertlər təşkil olunacaq. Konsertlərdə muğam, folklor, aşıq, estrada və pop musiqi nümunələri, müxtəlif rəqslər təqdim ediləcək.










# Türkiyəli nazir: Azərbaycanın son dövrlərdə nəqliyyat sahəsində reallaşdırdığı irimiqyaslı layihələr bizi qürurlandırır



*Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə indiyədək 184 min ton yük daşınıb. Bunun 17 min 500 tonu Türkiyə ərazisindən keçərək daşınan yüklərdir. Çindən yola düşən 26 konteynerlik ilk blok qatarı isə aprelin 15-də Türkiyənin Köseköy bölgəsinə çatıb. Bakı-Tbilisi-Qars dəmir yolu ilə sərnişin daşıyacaq qatarın iş prinsipi və proqramının hazırlanması üçün tərəflər mayın 24-25-də Ankarada toplaşacaqlar. Görüşdə qatarın həftəlik hərəkət günləri və saatları, biletlərin qiyməti və sair məsələlərin müzakirə olunaraq müvafiq qərarların qəbul edilməsi gözlənilir. Azərbaycan və Türkiyənin Bakı-Tbilisi-Qars dəmir yolu ilə hərəkət edəcək yük vaqonlarının birgə istehsalını həyata keçirəcəyi zavod isə layihələndirmə mərhələsindədir. Zavodun tikintisinə texniki dəstəyi Türkiyə tərəfi göstərəcək. Həmçinin zavodda istifadə olunacaq avadanlıqları da Türkiyə təmin edəcək. Hava nəqliyyatına gəldikdə isə yay aylarında "Pegasus" aviaşirkəti İzmir-Bakı-İzmir reyslərinə başlayacaq. Cari ildə ötən illə müqayisədə Türkiyə və Azərbaycan arasında aviareyslərin sayında 30 faiz artımın olacağını proqnozlaşdırırıq. Bu faktları AZƏRTAC-a eksklüziv müsahibəsində Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan səsləndirib.*

*Mehmet Cahit Turhan Azərbaycan ilə Türkiyə arasında nəqliyyat sahəsində görüləcək işləri, Bakı-Tbilisi-Qars dəmir yoluna dair gələcək planları, hava nəqliyyatında yeni inkişafları, iki qardaş ölkənin dünya xəritəsində nəqliyyat mərkəzi kimi çıxış etməsi və bunun əhəmiyyəti barədə AZƏRTAC-ın müxbirinin suallarını cavablandırıb. Həmin müsahibəni təqdim edirik.*

**- Azərbaycanla Türkiyənin nəqliyyat sahəsindəki əməkdaşlığını necə qiymətləndirirsiniz?**

- Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri Türkiyədir. Azərbaycanın müstəqilliyinin ilk illərindən bu vaxtadək Türkiyə hər zaman lazımi dəstəyi göstərib və göstərməkdə də davam edəcək. Birgə həyata keçirdiyimiz Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Baku-Tbilisi-Ərzurum qaz boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP kimi irimiqyaslı layihələr regiona da öz töhfəsini verir. Türkiyə Azərbaycandakı ən böyük investorlardan biridir. Ümid edirik ki, tezliklə Azərbaycan da Türkiyədə eyni mövqeyə sahib olacaq. Bütün bunlara baxmayaraq, yenə də etdiklərimizlə kifayətlənmirik. Gələcəkdə daha böyük vəzifələr, hədəflər bizi gözləyir. Öhdəmizə düşən əsas vəzifə isə iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirərək gələcək nəsillər üçün miras qoymaqdır.

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi və Azərbaycanın Türkiyə ilə dəmir yolu əlaqəsinin yaranması hər iki ölkənin bir-birinə nə qədər yaxın olduğunun götəricisidir. Avropa və Asiyanı bir-biri ilə əlaqələndirən ən qısa, etibarlı və iqtisadi cəhətdən əlverişli dəmir yolunun qurulması və Xəzər dənizindən istifadə edilməsi logistika sahəsində alternativ yaradır, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri dərinləşdirir. Bu baxımdan Azərbaycanın son vaxtlar həyata keçirdiyi irimiqyaslı layihələrdən qürur duyuruq.

Həm Azərbaycan, həm də digər region ölkələri ilə aramızdakı ən böyük logistik layihələrdən biri hesab edilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti və "Lapis Lazuli" Nəqliyyat Dəhlizi Qədim İpək Yolunun keçdiyi məntəqələrdən biri olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas dayaqlarıdır. Bu layihələr Türkiyənin Xəzər dənizi, Mərkəzi Asiya və Cənubi Asiya ilə əlaqələrini gücləndirəcək və regionda logistik gücə sahib olmasına xidmət edəcək. Bundan əlavə, həyata keçirilən layihələrin məqsədi Qədim İpək Yolunu canlandırmaq və Avropanın yükdaşıma şəbəkəsini Mərkəzi Asiya və Cənubi Asiya üzərindən Çin ilə Hindistana gətirib çıxarmaqdır. Bu, region ölkələrinin əhəmiyyətini daha da artıracaq. Buna görə də, son illərdə sürətlə inkişaf edən Türkiyə qarşıdakı dövrdə də bu inkişafı davam etdirmək üçün istehsal və ixrac istiqamətində ticarət dövriyyəsini artırmağı hədəfləyir. Azərbaycanla yanaşı, bütün Mərkəzi və Cənubi Asiya ölkələri ilə bu hədəfi həyata keçirmək üçün nəqliyyat sahəsi də mühüm vasitədir.

**- Gələcəkdə Azərbaycanla nəqliyyat sahəsində yeni layihələr həyata keçirməyi düşünürsünüzmü?**

- Hazırda Türkiyə ilə Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsini yenidən yaradır. Birgə həyata keçirdiyimiz layihələr gücümüzü artırmaqla yanaşı, digər ölkələrlə əməkdaşlığı da inkişaf etdirəcək və regionda nəqliyyat infrastrukturunun qurulmasına şərait yaradacaq. Bu layihələr və təşəbbüslər təkcə iqtisadi deyil, həm də böyük siyasi məna daşıyır, təhlükəsizliyi və sabitliyi artırır. Türkiyənin nəqliyyat sahəsində gördüyü işlər dünyaya səs salır. Azərbaycanla birgə həyata keçirilən layihələr Avropa İttifaqı-Çin ticarət şəbəkəsinə alternativ olub və Şərq-Qərb istiqamətində əhəmiyyətli bir marşrut yaradıb.

Azərbaycan və Türkiyə coğrafi mövqelərinə görə regionun ən vacib tranzit mərkəzlərindəndir. Azərbaycan Mərkəzi Asiyaya açılan qapıdır, Türkiyə isə üç qitənin kəsişdiyi ərazidə yerləşir. Biz yükdaşıyıcılarına həm fərqli marşrutlar, həm də fərqli nəqliyyat vasitələri təklif edərək onlara fayda verməyə çalışırıq. Öz ölkəmizlə yanaşı, region ölkələrinin ixrac mallarının çeşidlənməsinə şərait yaradır, iqtisadi mənada qazanclarını artırmağa səbəb oluruq. Bununla bağlı ən gözəl nümunə Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir. İxrac mallarını dəmir yolu ilə daşıyaraq başlanğıc və son mərhələlərini quru, dəniz yolu ilə həyata keçirərək bir çox ərazilərə çatdırırıq. Şərq ilə Qərb arasında alternativ marşrut təklifi ilə yanaşı, Şimal-Cənub istiqamətində də alternativ olmağı düşünürük.

Bütün bunlarla yanaşı, Qars Logistika Mərkəzində Azərbaycan tərəfindən bəzi investisiyaların qoyulacağının elan edilməsi, Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin, bir sıra əməkdaşlıq proqramlarının hazırlanması, birgə enerji layihələrinin davam etdirilməsi, Türkiyənin Serhat bölgəsi ərazisindəki sənaye infrastrukturunun Azərbaycanın tələbatına uyğun formada inkişafı bu əlaqələrin gələcəyi haqda fikir formalaşdırır. Həmçinin yüksəksürətli qatar, sürət qatarı, logistik mərkəz, hava limanları və avtomobil yolları layihələri də hər iki ölkənin taleyini birləşdirəcək şəkildə planlanlaşdırılır. Türkiyənin 2023-cü il hədəfləri istiqamətində Azərbaycanla əlaqələri genişləndirmək mühüm əhəmiyyət kəsb edir.

**- Türkiyə "Bir kəmər, bir yol" təşəbbüsünün region üçün əhəmiyyətini necə görür?**

- "Bir kəmər, bir yol" təşəbbüsü Çin, Asiya, Yaxın Şərq və Avropanı bir-birinə birləşdirən böyük bir nəqliyyat, investisiya, enerji və ticarət şəbəkəsini formalaşdırmağı hədəfləyir. Ölkələrimizin bu artan ticarət dövriyyəsindən və investisiya mühitindən daha çox pay götürməsi üçün əsas nəqliyyat dəhlizləri üzərində yerləşmək və nəqliyyat infrastrukturunu həmin istiqamətdə inkişaf etdirmək məcburiyyətindəyik.

Müasir İpək Yolu da adlandırılan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Şərqlə Qərb arasındakı mövcud yolları tamamlayıcı və təhlükəsiz bir marşrut edir. Həmçinin Türkiyənin son 16 ildə nəqliyyat siyasətindəki əsas hədəfi Çindən Londonadək fasiləsiz yükdaşıma xətti yaratmaq və böyük həcmdə infrastrukturla bağlı investisiyalar həyata keçirmək olub. Uzaq Şərqdən Avropaya qədər uzanan, yüz illər ərzində ticarət karvanlarının keçdiyi məntəqə kimi tanınan Qədim İpək Yolunun Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə inkişaf etdirilməsi üçün həm Anadoluda, həm də Qafqaz regionu və Mərkəzi Asiyada dəmir yolu şəbəkəsinin təşkil edilməsi və avtomobil yollarının yenilənməsi ilə bağlı xeyli vaxtdır region ölkələri ilə əməkdaşlığımızı davam etdiririk. Bu məqsədlə Asiya-Avropa-Yaxın Şərq istiqamətində nəqliyyat şəbəkəsini inkişaf etdirmək üçün mühüm addımlar atır, ölkə daxilində də Şərq-Qərb və Şimal-Cənub istiqamətində layihələr reallaşdırırıq.

Çünki "Bir kəmər, bir yol" təşəbbüsü bizim coğrafiyamızda yerləşən ölkələrin gələcəyi deməkdir. İnanırıq ki, Anadolu, Qafqaz regionu və Mərkəzi Asiya üçbucağında yükdaşımalar orta müddətdə indiki iqtisadi vəziyyətinin daha yüksək mərhələsinə çatacaq. Təbii ki, bu təşəbbüs təkcə iqtisadi deyil, xalqlar arasında mədəni və sosial əlaqələri də gücləndirəcək.

Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çin və Mərkəzi Asiyadan ölkəmizə gələn bütün yolları birləşdirən mühüm infrastruktur olaraq çox böyük əhəmiyyət daşıyır. Bu layihə sadəcə üç ölkəni birləşdirmir. İngiltərə, Fransa, Belçika, Almaniya, Avstriya, Macarıstan, Serbiya, Bolqarıstan, Türkiyə, Gürcüstan, Azərbaycan, Qazaxıstan, Türkmənistan və Çini dəmir yolu ilə bir-birinə bağlayır. Bakıdan Qarsa qədər uzanan 829 kilometrlik dəmir yolu xətti Xəzərdən keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun vacib bir hissəsini tamamlayır. Lakin bu layihənin əhəmiyyəti qarşıdakı illərdə daha çox aydın olacaq. Çin və Avropa arasındakı ticarət hazırda günlük 1,5 milyard dollara çatır. Bu ticarət axınının artaraq davam etməsi və qarşıdakı 5-6 ildə ticarət dövriyyəsinin gündəlik 2 milyard dolları keçəcəyi gözlənilir.

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tam gücü ilə işləməsi, bu xəttin tamamlayıcısı olan yolların inşasının başa çatdırılması mühüm əhəmiyyət daşıyır. Buna görə də Marmaray xətti, Yavuz Sultan Səlim körpüsü, Şimal Mərmərə avtomobil yolu və Avrasiya tuneli, Osmanqazi körpüsü, sürət qatarı və yüksəksürətli qatar xətti, Şimal Egey limanı, Gebze-Osmanqazi-İzmir avtomobil yolu, "1925 Çanaqqala" körpüsü, İstanbul Hava Limanı kimi irimiqyaslı layihələrlə də BTQ-nin yaratdığı imkanları və onun əhəmiyyətini artırırıq. Xüsusilə də, bu dəmir yolu xəttinin davamı olan layihələri dövlətin özəl tərəfdaşları ilə birgə həyata keçirərək həm sürətli, həm daha az xərclə, həm də özəl sektorun dinamikliyindən istifadə edərək reallaşdırırıq. Tükənən ehtiyatlar ilə, tükənməyən tələbatları ödəyirik.

**- Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi istifadəyə verildikdən sonra Türkiyəyə məxsus və bu ölkədən tranzit keçərək daşınan yüklərin həcmi nə qədərdir? Türkiyədən daşınan ümumi yüklərin neçə faizi BTQ-nin payına düşür?**

- BTQ ilə bu vaxtadək ümumilikdə 184 min ton yük daşınıb. Bunun 17 min 500 tonu Türkiyə ərazisindən keçərək daşınan yüklərdir. 2018-ci ildə Türkiyənin beynəlxalq yükdaşımalarının 6,8 faizi BTQ-nin payına düşür.

**- Türkiyə BTQ ilə yükdaşımalara yeni ölkələrin diqqətini çəkmək üçün danışıqlar aparırmı və bunlar hansı ölkələrdir? Bu dəmir yolu xətti ilə daşınan yüklərə tərəfinizdən hansı güzəştlər tətbiq edilir?**

- Nazirliyin nəzdində olan Türkiyənin dövlət dəmir yolu şirkəti tərəfindən yükdaşımalarla bağlı bütün sərgi və tədbirlərdə BTQ barədə məlumat verilir. Dəmir yolunun inkişaf etdirilməsi, yük və istiqamət növlərinin artırılması məqsədilə başda Çin, Almaniya və Avstriya olmaqla müxtəlif Avropa və Asiya ölkələrinin nümayəndələri ilə görüşlər keçirilir.

Türkiyə yanvar ayında Çinlə Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə ilk dəfə yükdaşımalara başlayıb. Həmin ay Çindən Türkiyənin Köseköy bölgəsinə 4 konteyner, fevralda isə 5 konteyner daşınıb. Çindən çıxan 26 konteynerlik ilk blok qatarı isə aprelin 15-də Köseköyə çatıb. Qatar 1974 kilometrlik Türkiyə yolunu 57 saat 30 dəqiqədə tamamlayıb.

Qısa zaman ərzində Türkiyə və Çin arasında, həmçinin Türkiyədəki Marmaray xətti istifadə edilməklə Çin-Avropa arasında davamlı blok yük qatarlarının istifadəsi ilə bağlı əhəmiyyətli nailiyyətlər əldə edilib. BTQ dəmir yolunda yüklərin sürətli və sərfəli qiymətlərlə daşınması üçün xüsusi tariflər də tətbiq olunur.

**- Martın sonlarında Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı Bakıya gətirilib. Sərnişindaşımaya başlanandan sonra Türkiyə əhalisinin neçə faizinin bu xətdən istifadə edəcəyini düşünürsünüz? Türkiyə BTQ-də öz sərnişin qatarlarını istifadə edəcəkmi?**

- BTQ dəmir yolu xətti ilə "Azərbaycan Dəmir Yolları" QSC-nin "Stadler" şirkətindən təmin etdiyi 10 ədəd vaqonla sərnişin daşınmasına başlanılacaq. Sözügedən vaqonların sərnişin tutumu 257 nəfərdir və qatarda 9 sərnişin vaqonu, bir restoran mövcuddur. Qatarın iş prinsipi və proqramının hazırlanması üçün tərəflər mayın 24-25-də Ankarada toplaşacaq. Görüşün yekununda qatarın həftəlik hərəkət günləri və saatları, biletlərin qiymətləri və sair məsələlərin müzakirə edilərək müvafiq qərarların qəbul olunması gözlənilir.

Nazirliyə bununla bağlı daxil olan müraciətlərdən sərnişin sıxlığının çox olacağını proqnozlaşdırırıq. Bu dəmir yolu ilə hərəkət edəcək qatarlar "Azərbaycan Dəmir Yolları" QSC-yə məxsus dar və geniş izdə hərəkət edən vaqonlardan ibarət olacaq. İzlərin fərqli olması isə Türkiyəyə məxsus vaqonların hərəkətinə çətinlik yaradır.

**- Türkiyə ilə Azərbaycan BTQ xəttində istifadə olunacaq birgə vaqon istehsalına nə vaxt başlayacaq?**

- Nazirliyin tabeliyindəki "Türkiye Demiryolu Makinaları Sanayi A.Ş." (TÜDEMSAŞ) tərəfindən istehsal olunan 150 yük vaqonu hazırda BTQ dəmir yolu xəttində yükdaşıma həyata keçirir. İndi isə Azərbaycan və Türkiyə birgə vaqon istehsalı zavodu inşa edəcək və həmin vaqonlar məhz BTQ xəttində işləyəcək. Bununla bağlı rəhbər şəxslərimiz həmkarları ilə görüşüb. Zavodun tikintisinə texniki dəstək Türkiyə tərəfindən göstəriləcək. Həmçinin zavodda istifadə olunacaq avadanlıqları da Türkiyə təmin edəcək. Hazırda işlər layihələndirmə mərhələsindədir.

Bundan əlavə, xüsusilə Türkiyə-Azərbaycan arasında istismar olunacaq vaqonların TÜDEMSAŞ tərəfindən istehsal olunması məqsədilə işlərə başlanılıb. Bu çərçivədə Azərbaycandan bir ədəd EA tipli vaqonlar alınaraq Türkiyəyə gətirilib və TÜDEMSAŞ tərəfindən yeni vaqon layihələndirilib. İki ədəd prototip istehsalı planlanlaşdırılır və cari il ərzində işlərin tamamlanması nəzərdə tutulur. Azərbaycan tərəfindən 600 vaqona ehtiyacın olduğu bildirilib.

**- Azərbaycan və Türkiyənin hava nəqliyyatı ilə sərnişin daşınmasında bu il gözlənilən yeniliklər nələrdir?**

- Ötən il iki qardaş ölkə arasında 7 min 919 aviareys həyata keçirilib və 972 min 533 sərnişin daşınıb. Həmçinin Türkiyə-Azərbaycan arasında keçən il 17 min 527 ton yükdaşıma reallaşdırılıb.

Artıq "Türk Hava Yolları" tərəfindən Antalya-Bakı-Antalya istiqamətində mövsümi aviareyslər həyata keçirilir. Yay aylarında "Pegasus" aviaşirkəti İzmir-Bakı-İzmir istiqamətində reyslərə başlayacaq və iki ölkənin nəqliyyat şəbəkəsi daha da güclənəcək.

Cari ildə keçən illə müqayisədə Türkiyə və Azərbaycan arasında aviareyslərin sayında 30 faiz artımın olacağını proqnozlaşdırırıq. Uçuşlardakı artım iki ölkənin iqtisadi və mədəni əlaqələrinə öz müsbət təsirini göstərəcək. Həmçinin Türkiyə və Azərbaycanın Hava Nəqliyyatı Sazişinin yenilənməsi üçün Mülki Aviasiya Qaydaları ilə bağlı işlər yekunlaşmaq üzrədir və mülki aviasiyanın tələbatına tam cavab verəcək yeni sazişin tezliklə imzalanacağını düşünürük.

**- Maraqlı müsahibə üçün təşəkkür edirik.**

# Cavanşir Paşazadə: Azərbaycan dünyaya nümunəvi inkişaf modeli təqdim edir



**"Azərbaycan iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıraraq dərinməzmunlu sosial siyasət həyata keçirir. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, ölkəmizdə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq respublikamızda vətəndaşların rifah halının davamlı olaraq yaxşılaşdırılmasına, gəlir imkanlarının artırılmasına, onlara göstərilən xidmətlərin əlçatanlığının təmin olunmasına yönələn müxtəlif tədbirlər həyata keçirilir".** Bu fikirləri Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib.

C.Paşazadə bildirib ki, məqsədyönlü siyasətin nəticəsidir ki, ölkəmiz, beynəlxalq səviyyəli reytinq agentliklərinin hesabatlarında da göstərildiyi kimi, insan inkişafı indeksini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa nail olub. Onun sözlərinə görə, BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərinə qoşulan Azərbaycanda yoxsulluq və işsizlik qısa müddətdə 5 faiz səviyyəsinədək aşağı salınıb.

**"Respublikamızda 2019-cu ilin əvvəlindən isə ötən il anonsu verilən böyük sosial paketin icrası aktiv fazaya daxil olub. İlin əvvəlindən bəri dövlət başçısı bilavasitə ölkə vətəndaşlarının həyat səviyyəsinin daha da yüksəldilməsinə, onları narahat edən müxtəlif sosial məsələlərin həllinə yönələn çoxlu sayda Fərman və sərəncamlar imzalayıb. Prezident İlham Əliyev aprelin 30-da keçirilən Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində vurğulayıb ki, görülən bu işlər nəticəsində üç milyon insan imzalanmış fərmanlardan bu və ya digər formada faydalanıb, vətəndaşların maddi vəziyyəti yaxşılaşıb, onları narahat edən problemlər öz həllini tapıb. Bütövlükdə, Azərbaycan dünyaya nümunəvi inkişaf modeli təqdim edir. Statistik göstəricilərə nəzər saldıqda və müqayisəli təhlillər apardıqda aydın şəkildə görünür ki, beynəlxalq miqyasda Azərbaycan qədər dinamik iqtisadi inkişaf göstəriciləri qazanan ölkələrin sayı azdır. Bu ilin birinci rübündə respublikamızda ümumi daxili məhsul istehsalı 3,3 dəfədən çox artıb ki, bu da çox yüksək göstəricidir. Eyni zamanda, milli iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyi artıb. Bütün bunlar dinamik inkişafın nəticələridir"**, - deyə C.Paşazadə vurğulayıb.

# Beynəlxalq birliyin dialoq məkanı kimi Azərbaycanı seçməsi təsadüfi deyil

Bu gün Azərbaycan dünya miqyasında beynəlxalq dialoq məkanı, sabitləşdirici, sülhsevər ölkə kimi tanınır. Təbii ki, belə müsbət imicin formalaşması uzun illər ərzində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin gərgin səylərin nəticəsində mümkün olub. Ölkəmiz artıq neçə illərdir ki, beynəlxalq tədbirlərə ev sahibliyi edir, dünyanın bir çox dövlətindən nüfuzlu siyasi, ictimai və dövlət xadimləri bu tədbirlərdə iştirak etmək üçün Azərbaycana gəlir, ölkəmizin sürətli inkişafını, həqiqətləri, reallıqları öz gözləri ilə görürlər. Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında öz işinə başlayan V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Forumda 100-dən çox ölkənin, 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmi şəxsləri iştirak edirlər. Bu göstərici bir daha Azərbaycanın beynəlxalq dialoq məkanı kimi çəkisini daha da artırır, nüfuzunu yüksəldir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə paytaxt Bakıda təşkil olunan bu beynəlxalq tədbirlər regionumuza və dünyaya sabitlik, sülh, əmin-amanlıq vəd edir. 2008-ci ildən start götürən "Bakı Prosesi" bu illər ərzində müxtəlif qitələri təmsil edən, dinindən, irqindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsi öz ətrafına toplamağı bacarıb. İldən-ilə coğrafiyası genişlənən bu dəfəki Forumda Böyük Britaniya,



Səudiyyə Ərəbistanı, hətta Okeanın o tayından ölkələrin təmsilçiləri iştirak edirlər. Hesab edirəm ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun builki şüarından da göründüyü kimi, ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişələrə qarşı fəaliyyət naminə dialoq qurmaq baxımından faydalı olacaq.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, bu kimi beynəlxalq əhəmiyyətli tədbirlərin Azərbaycanda keçirilməsi təsadüfi xarakter daşımır: **"Dövlətimizin başçısının təşəbbüsü ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilib. Multikulturalizm ölkəmizdə dövlət siyasətinin əsas tərkib hissəsidir. Bu, tarixən də belə olub. Yüzilliklər boyu müxtəlif dinlərə, mədəniyyətlərə mənsub insanlar Azərbaycan ərazisində mehriban, sülh və təhlükəsizlik şəraitində yaşayıblar. Ona görə də beynəlxalq birliyin dialoq məkanı kimi Azərbaycanı seçməsi təsadüfi deyil. Hesab edirəm ki, bu Forum da kifayət qədər ciddi müzakirə mövzuları ilə zəngin və məhsuldar olacaq".**

# UNEC-də əcnəbi tələbələrin Milli Mətbəx festivalı keçirilib



Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) əcnəbi tələbələrin iştirakı ilə Milli Mətbəx festivalı keçirilib.



Tələbələrlə iş üzrə prorektor, dosent Səadət Qəndilova UNEC-in əcnəbi tələbələrinin universitetin sosial həyatına inteqrasiyası istiqamətində görülən işlərdən söz açıb. Prorektor əcnəbi tələbələrin təmsil etdikləri ölkələrin tarixinin, mədəniyyətinin, mətbəxinin tanıdılması baxımdan festivalın böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Beynəlxalq əməkdaşlıq departamentinin direktoru Sənnur Əliyev UNEC-də təhsil alan əcnəbi tələbələr barədə məlumat verib. Bildirib ki, UNEC-də 20-yə yaxın ölkədən 245 nəfər əcnəbi bakalavr, magistr və doktorant təhsil alır. O, UNEC-də əcnəbi tələbənin təşəbbüsü ilə ödənişsiz "Danışıq klubu"nun (Conversation club) da fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Əfqanıstan vətəndaşı olan, Beynəlxalq İqtisadiyyat Məktəbinin I kurs tələbəsi, UNEC-in əcnəbi tələbə klubunun rəhbəri Muqader Vazeri universitetdə yerli və əcnəbi tələbələr arasında sosial inteqrasiyasının yüksək səviyyədə təşkil edildiyindən danışıb. Festivalın keçirilməsinin bu münasibətlərin daha da inkişaf etdirilməsində mühüm rol oynadığını vurğulayıb.

Festivalda UNEC-in əcnəbi tələbələri təmsil etdikləri ölkələrin milli mətbəxinə aid yeməklər hazırlayaraq təqdim ediblər. Əcnəbilərin milli geyimlərdə təqdim etdikləri Türkiyə, Almaniya, Çin, Əfqanıstan, Keniya, Nepal və digər ölkələrin təamları müəllim və tələbələr tərəfindən maraqla qarşılanıb. Festival əcnəbi və yerli tələbələrin, müəllimlərin "Yallı" sədaları altında birgə rəqsi ilə davam edib.

# Pirallahı rayonunda “Əbədiyaşar Lider” adlı tədbir keçirilib





Dünən Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatının və Pirallahı rayon Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Əbədiyaşar Lider” adlı tədbir keçirilib.

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatından AZƏRTAC-a verilən məlumata görə, Pirallahı rayon Gənclər Mərkəzində keçirilən tədbirdə Milli Məclisin deputatları, Pirallahı rayon ağsaqqalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər müasir müstəqil Azərbaycanın memarı və qurucusu, dünya miqyaslı siyasətçi və dövlət xadim Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən, Onun xilaskarlıq missiyasından bəhs ediblər. Qeyd olunub ki, Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ideyaları onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Çıxışlarda ölkəmizdə vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlardan, ağsaqqallara göstərilən dövlət qayğısından bəhs olunub.

Tədbirin bədii hissəsində 168 saylı orta məktəbin şagirdlərinin ifasında kompozisiya nümayiş etdirilib.

Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə fəxri fərmanlar və partiya sıralarına yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri təqdim olunub.

# YAP Cəlilabad rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib





Mayın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Cəlilabad rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül-çiçək dəstələri düzüblər.

Konfransı giriş sözü ilə YAP Cəlilabad rayon təşkilatının sədri M.Mirxaslı açaraq qeyd edib ki, Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir və gənclərimiz ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.

Sonra YAP Cəlilabad rayon təşkilatı Gənclər Birliyinin sədri Vüsal Kazımov hesabat məruzəsi ilə çıxış edib. O, hesabat dövrü ərzində görülən işlər haqqında ətraflı məlumat verib.

Konfrans iştirakçılarından Orxan Əzizov, Məryəm Novruzova, Elçin Hüseynov və Ofelya Qəhrəmanova çıxış edərək hesabat dövründə görülən işləri qənaətbəxş hesab ediblər.

Konfransda çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Mirkazım Kazımov ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin gənclərə diqqət və qayğısından bəhs ediblər. Natiqlər ölkəmizdə ictimai-siyasi sabitlik və iqtisadi inkişaf sahəsində əldə olunmuş nailiyyətlərin məhz dövlət başçısının səmərəli və yorulmaz fəaliyyəti sayəsində mümkün olduğunu diqqətə çatdırıblar.

Konfransda həmçinin təşkilati məsələlərə baxılıb. YAP Cəlilabad rayon təşkilatı Gənclər Birliyinin 23 nəfərdən ibarət Şurası, 11 nəfərdən ibarət İdarə Heyəti müəyyənləşib. Konfransda Vüsal Adışirin oğlu Kazımov YAP rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib.

Konfransda həmçinin Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin növbəti konfransına 2 nəfər nümayəndə seçilib.

# YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin VI hesabat-seçki konfransı keçirilib






Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin VI hesabat-seçki konfransı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, xatirəsini ehtiramla yad ediblər.

Konfransı giriş sözü ilə açan YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli bildirib ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti möhtərəm Prezidentimiz, YAP-ın Sədri cənab İlham Əliyev tərəfndən uğurla davam etdirilir.

Sonra YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin sədri Daşqın Rüstəmov hesabat məruzəsi ilə çıxış edib. Məruzəçi qeyd edib ki, hazırda təşkilatın Gənclər Birliyi 4310 nəfər gənci öz sıralarında birləşdirir, bu da YAP Kürdəmir rayon təşkilatı üzvlərinin 44,5 %-ni təşkil edir.

Məruzə ətrafında çıxış edən rayon təşkilatının şura üzvü, Heydər Əliyev Mərkəzinin əməkdaşı Xəyyam Məlikov, şəhər 1 saylı tam orta məktəbin müəllimi Günel Musayeva, “Azərxalça” ASC-nin Kürdəmir rayon filialının müdiri Rauf Abuşov, Karrar kənd tam orta məktəbinin direktoru Mais Bayramov YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin hesabat dövründəki fəaliyyətini qənaətbəxş hesab ediblər.

Konfransda çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin deputatı Elman Nəsirov, Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov respublikamızda gənclər üçün yaradılan böyük imkanlardan və yüksək şəraitdən danışaraq bu gün gəncliyin artıq siyasi cəhətdən formalaşmış, yetkinləşmiş səviyyədə olduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərə böyük diqqət və qayğı ilə yanaşıb. Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan da danışan natiqlər bu gün ölkə rəhbəri cənab İlham Əliyevin gənclərə verdiyi önəmi vurğulayaraq, bütün ictimai-siyasi proseslərdə gənclərin aktiv şəkildə iştirakını qeyd ediblər.

Sonra, konfransda təşkilati məsələlərə baxılıb. YAP Kürdəmir rayon təşkilatının Gənclər Birliyinin 19 nəfərdən ibarət Şura üzvü və 9 nəfərdən ibarət İdarə Heyəti seçilib. Rauf Abuşov YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin sədri, Mais Bayramov və Hacıoğlan Məlikov sədrin müavinləri seçiliblər. Eyni zamanda 2 nəfər YAP Gənclər Birliyinin V konfransına nümayəndə seçilib.

# Azərbaycan Dillər Universitetində Türkiyənin Atılım Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib



Mayın 2-də Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Türkiyənin Atılım Universitetinin prorektoru, professor Sərkan Əryılmazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qardaş ölkə təmsilçilərini rəhbərlik etdiyi universitetdə görməkdən məmnun olduğunu söyləyən rektor Kamal Abdulla ötən il Türkiyənin Atılım Universiteti ilə ADU arasında əməkdaşlıq memorandumunun imzalandığını xatırladıb. Elm, təhsil sahəsində qardaş ölkənin ali təhsil müəssisələri ilə əməkdaşlığın əhəmiyyətli olduğunu vurğulayan rektor bu istiqamətdə müxtəlif layihələrin həyata keçiriləcəyini söyləyib.

Həmçinin rektor ADU-dakı fakültələrin, dil və mədəniyyət mərkəzlərinin fəaliyyəti, baş redaktoru olduğu “Türkologiya” jurnalı haqqında məlumat verib, həyata keçirilən türkoloji layihələrdən bəhs edib. O həmçinin “Nibelunqlar nəğməsi” və “Kitabi-Dədə Qorqud” dastanlarının müqayisəli təhlili ilə bağlı aparılan tədqiqat layihələrindən söz açıb.



K.Abdulla Azərbaycanda multikulturalizmlə bağlı görülən işlər barədə məlumat verərək bu istiqamətdə də birgə əməkdaşlığın mümkünlüyündən danışıb.

ADU ilə təcrübə mübadiləsinin hər iki universitet üçün faydalı olacağını bildirən Atılım Universitetinin prorektoru, professor Sərkan Əryılmaz təmsil etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verib. O bildirib ki, 1996-cı ildə yaradılan, Türkiyənin paytaxtı Ankara şəhərində yerləşən universitet fəaliyyət göstərdiyi qısa zaman ərzində “QS İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya” regionu üzrə reytinq cədvəlində, “Times Higher Education World University Ranking”lərdə əhəmiyyətli mövqelər tutub. S.Əryılmaz bildirib ki, Atılım Universitetində 50-dən çox xarici ölkədən olan gənclər təhsil alırlar. Bu universitetdə tədris türk və ingilis dillərində aparılır.

Daha sonra qarşılıqlı əməkdaşlıq, tələbə və müəllimlərin təkmilləşdirilməsi istiqamətində görüləcək işlər müzakirə olunub.

**Müşfiqə BAYRAMLI**

# Dövlət Neft və Sənaye Universiteti ilə Atılım Universiteti arasında memorandum imzalanıb



Mayın 2-də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Türkiyənin Atılım Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. İmzalanma mərasimində ADNSU-nun Tədris işləri üzrə prorektoru, dosent Qasım Məmmədov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Rafiq Camalov, Qaz-neft-mədən fakültəsinin dekanı professor Qafar İsmayılov, həmçinin Əcnəbi tələbələrin dekanı Yaşar Həsənov və digərləri iştirak ediblər.

Qonaqları salamlayan ADNSU-nun tədris işləri üzrə prorektoru, dosent Q.Məmmədov universitetdə tədris prosesi, fakültələr, beynəlxalq əməkdaşlıq, startap layihələri, o cümlədən universitetin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universiteti (UFAZ) haqqında geniş məlumat verib. Bildirib ki, 1920-ci ildən fəaliyyət göstərən ali məktəb gələn il 100 illik yubileyini keçirməyə hazırlaşır. ADNSU-nun Avropa və Asiya regionunda ilk neft təmayüllü ali məktəb olduğunu deyən prorektor burada Türkiyə də daxil olmaqla dünyanın ayrı-ayrı ölkələrinin vətəndaşlarının təhsil aldığını söyləyib.



Səmimi görüşə görə təşəkkürünü bildirən Türkiyənin Atılım Universitetinin prorektoru, professor Sərkan Əryılmaz bu əməkdaşlığın hər iki tərəfə böyük fayda verəcəyini və Türkiyə-Azərbaycan əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcəyini vurğulayıb. Sərkan Əryılmaz təmsil etdiyi universitet haqqında məlumat verərək bildirib ki, əsası 1996-cı ildə qoyulan bu ali təhsil ocağı Türkiyənin paytaxtı Ankara şəhərində yerləşir. Universitet “QS İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya” regionu üzrə reytinq cədvəlində, “Times Higher Education World University Ranking”lərdə əhəmiyyətli mövqelər tutub. S.Əryılmaz onu da vurğulayıb ki, Ankaranın “Esenboğa” hava limanında fəaliyyət göstərən Mülki Aviasiya Tədris Mərkəzində tələbələrin təcrübə proqramları keçmələri üçün də hər bir şərait yaradılıb.

Qonaqlar ADNSU ilə əməkdaşlıq imkanlarını nəzərdən keçirib yeni layihələr üzərində işləmək istədiklərini diqqətə çatdırıblar.

Sonra universitetlərarası əlaqələrin genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb, iki ali məktəb arasında əməkdaşlığa dair memorandum imzalanıb. Qeyd olunub ki, əməkdaşlıq çərçivəsində müəllim-tələbə mübadiləsi, birgə elmi konfranslar, seminarlar və bu kimi digər fəaliyyətlər həyata keçiriləcək.

**Müşfiqə BAYRAMLI**

# YAP Balakən rayon təşkilatı Gənclər Birliyinin üzvləri ictimai-siyasi həyatda fəallıq nümayiş etdirirlər

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan gəncliyinə diqqət və qayğının nəticəsidir ki, hazırda ölkə gəncləri ictimai həyatın bütün sahələrində fəal iştirak edir, cəmiyyətin avanqard qüvvəsinə çevriliblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikir YAP Balakən rayon təşkilatı Gənclər Birliyinin mayın 1-də keçirilən V konfransında səsləndirilib.

Əvvəlcə partiyanın rayon təşkilatının fəal gəncləri və qonaqlar Ümummilli Lider Heydər Əliyevin mədəniyyət və istirahət parkında ucaldılan abidəsi önünə gül dəstələri düzərək, dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

YAP Balakən rayon təşkilatı Gənclər Birliyinin sədri Sərxan Hacıyev IV konfransdan ötən müddət ərzində görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib.

Konfransda Milli Məclisin deputatları Kamilə Əliyeva, Nəsib Məhəməliyev, partiya üzvləri çıxış edərək, Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olunmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında Yeni Azərbaycan Partiyasının mühüm rolu və xidmətləri olduğunu bildiriblər. Vurğulanıb ki, partiyanın 700 mindən artıq üzvünün 40 faizdən çoxunu gənclərin təşkil etməsi onların Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqətlərinin, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstəklərinin, Onun ətrafında sıx birləşərək gələcəyə daha böyük inamla baxmalarının göstəricisidir.

Sonra təşkilati məsələlərə baxılıb, YAP rayon təşkilatı Gənclər Birliyi Şurasının və İdarə Heyətinin yeni tərkibi müəyyənləşib. Səsvermə nəticəsində Nurlan Şibliyev YAP Balakən rayon təşkilatı Gənclər Birliyinin yeni sədri seçilib. Konfransda, həmçinin YAP Gənclər Birliyinin respublika konfransında iştirak edəcək nümayəndələr də müəyyənləşib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Regionlarda 100 min hektarda pambıq əkilməsi üçün səpin işləri yekunlaşmaq üzrədir

## *Pambıq istehsalındakı artımın yalnız məhsuldarlığın yüksəldilməsi hesabına əldə olunması qarşıda duran vacib hədəflərdəndir*



Məlum olduğu kimi, dinamik tərəqqiyə malik olan Azərbaycan mütərəqqi inkişaf modeli ilə fərqlənir. Bu modelin səciyyəvi xüsusiyyətlərindən biri bütün sahələrin inkişafının təmin olunması, eləcə də həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində möhtəşəm nailiyyətlərin qazanılmasıdır. Ölkəmizdə digər sahələrdə olduğu kimi, aqrar sektorun inkişafı istiqamətində də aparılan uğurlu siyasət səmərəli nəticələr verməkdədir. Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, aqrar sahədə inkişaf dinamikası cari ildə də davam edir: **"Birinci rübdə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi istehsal həcmi 3,6 faiz, o cümlədən bitkiçilik 24,7 və heyvandarlıq 2,8 faiz artıb. 32 faiz çox tərəvəz istehsal olunub, meyvə-tərəvəz ixracının həcmi 28,2 faiz artıb".**

O da qeyd edilməlidir ki, respublikamızda aqrar sektorda bir sıra gəlirli sahələrin, o cümlədən pambıqçılığın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. Nazirlər Kabinetinin sözügedən iclasında İnam Kərimov onu da söyləyib ki, cari ildə 100 min hektarda pambıq əkilməsi üçün səpin işləri yekunlaşmaq üzrədir və bu il ümumi məhsuldarlığın daha yüksək olması proqnozlaşdırılır: **"Ötən il xam pambığın alış qiymətinin hər ton üçün 650 manat müəyyən edilməsi pambıq istehsalını fermerlər üçün sərfəli sahəyə çevirib. Cari ildə taxıl və pambıq istehsalındakı artımın yalnız məhsuldarlığın yüksəldilməsi hesabına əldə olunması qarşıda duran vacib hədəflərdəndir".**

Xatırladaq ki, indiyədək pambıqçılığın inkişafı ilə bağlı aktual məsələlərin müzakirə edildiyi bir neçə müşavirə keçirilib, müvafiq Dövlət Proqramı qəbul edilib. Eyni zamanda, pambıqçılıqla məşğul olan fermerlərə dəstək tədbirləri gücləndirilib - onlara verilən subsidiyalar, tədarük olunan məhsulun alış qiyməti artırılıb. Bundan başqa, regionlarda pambıq əkib-becərən fermerlərə dövlət tərəfindən gübrə və texnika ilə təchizat sarıdan da hər cür köməklik göstərilir.

Bütövlükdə, Azərbaycanın regionlarında pambıqçılığın inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Yeri gəlmişkən, Ucar rayonunda pambıq bitkisinin Çin texnologiyası əsasında becərilməsi ilə bağlı pilot layihənin təqdimat mərasimi keçirilib. Tədbirdə kənd təsərrüfatı naziri İnam Kərimov, nazirlik Aparatının, tabeli qurumların və pambıq əkini aparılan rayonların Dövlət Aqrar İnkişaf mərkəzlərinin, həmçinin pambıq tədarükü məntəqələrinin rəhbərləri, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri, pambıqçılıq üzrə ixtisaslaşmış Kürdəmir, Ucar, Ağsu, Ağcabədi, Zərdab, Yevlax və digər rayonlardan olan 200-dək fermer iştirak edib.

Tədbiri açan kənd təsərrüfatı naziri İnam Kərimov Çindən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə Ucarda 10 hektar sahədə model təsərrüfat yaradıldığını bildirib: **"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev torpaq və su resurslarından səmərəli istifadə etmək və məhsuldarlığı maksimum yüksək səviyyəyə qaldırmaqla bağlı çox mühüm tapşırıq verib. Bu innovativ texnologiya da fermerin daha az əziyyət çəkməsinə, alaq otlarına qarşı mübarizə tədbirləri və suvarma üçün daha az vəsait xərcləməsinə səbəb olur. Çin texnologiyasından istifadə nəticəsində istehsalat xərcləri azalır, məhsuldarlıq artır. Siz fermerlər bu gün qazandığınız təcrübənin carçısı olmalısınız. Biz Beyləqanda və Tərtərdə türk və yunan mütəxəssislərin iştirakı ilə model təsərrüfatlar yaradırıq. Azərbaycanda pambıqçılığın ənənələri zəngindir. Artıq dünyada kənd təsərrüfatının inkişafı təcrübə mübadiləsi üzərində qurulub. Biz dünya təcrübəsini öyrənməli, öz yaxşı təcrübəmizlə birləşdirməli və təcrübəmizi digər dövlətlərlə bölüşməliyik".**

Daha sonra tədbir iştirakçıları Şirvan Təcrübə Stansiyasının torpaq sahəsində Çinə məxsus innovativ texnologiya əsasında pambıq səpini ilə əyani tanış olublar. Ənənəvi əkin və becərmə üsullarından fərqli olaraq Çin texnologiyası əsasında becərilən 10 hektarlıq sahə lazer mala ilə hazırlanıb. Çində tətbiq edilən bu texnologiyanın üstünlükləri ondan ibarətdir ki, lazer malalama torpağın təkrar şoranlaşmasının qarşısını alır, suya qənaət olunur, toxumların bərabər səviyyədə çıxmasına şərait yaradır, nəticədə məhsuldarlıq artır.

Yeni sistemin texniki üstünlüyünə gəldikdə, bir gedişlə 3 əməliyyatı (çiyidin səpilməsi, damcılı suvarma borusunun sərilməsi, polietilen örtüyün açılması) yerinə yetirmək mümkündür. Eyni zamanda, yeni innovativ texnologiya hər hektara düşən bitki sıxlığının çox olması ilə fərqlənir. Belə ki, Çin texnologiyası əsasında cərgəarası 90 santimetr olmaqla, hər hektara 200-220 min toxum səpilir. İndiyədək ənənəvi üsulla aparılan əkində isə hər hektarda 100-110 min toxum səpilirdi.

Torpaqda buxarlanmanın qarşısının alınması, nəmlik ehtiyatının yaradılması da pambığın innovativ texnologiya ilə əkilməsinin üstün cəhətlərindəndir. Çin texnologiyası əsasında pambığın əkini və becərilməsi zamanı polietilen örtükdən istifadə olunması alaq otlarının inkişafını məhdudlaşdırır ki, bu da ənənəvi üsulla müqayisədə əsas üstünlüklərdən biri sayılır. Bundan başqa, polietilen örtük toxumun inkişafı üçün yaxşı temperatur rejimi yaradır, bununla da erkən səpini həyata keçirmək mümkün olur.

Tədbir iştirakçılarına bildirilib ki, Azərbaycanda kənd təsərrüfatına yararlı torpaq sahəsinin az olması intensiv üsulla məhsuldarlığın artırılmasını zəruri edir. Hazırda əsas məqsəd yüksək məhsuldarlığa imkan verən bu pilot layihənin gələcəkdə daha geniş ərazilərdə tətbiqinə nail olmaqdır. Bununla bağlı, Azərbaycan Dövlət Aqrar Universitetinin müəllim və tələbələrinə Çin texnologiyası əsasında pambıq əkininin həyata keçirilməsi ilə bağlı ətraflı məlumatın verilməsi, eləcə də pambıqçılıqla məşğul olan şirkətlərə bu innovativ layihənin üstünlüklərinin nümayiş etdirilməsi nəzərdə tutulur.

Sonda yeni texnologiyanın tətbiqi ilə əlaqədar fermerlərin sualları mütəxəssislər tərəfindən cavablandırılıb, mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.

Təqdimat mərasimindən sonra kənd təsərrüfatı naziri İnam Kərimov səyyar qəbul keçirib. Səyyar qəbulda nazir fermerlərin qayğıları ilə maraqlanıb, müvafiq göstəriş və tapşırıqlar verib.

Onu da qeyd edək ki, hazırda respublikanın bölgələrində pambıq əkini davam etməkdədir. Neftçalada çiyid səpini uğurla davam edir və qısa müddətdə 2 min hektardan çox sahəyə çiyid səpilib. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, neftçalalı "ağ qızıl" ustaları cari ildə 5 min hektar sahədə pambıq əkməyi planlaşdırıblar. Bunun üçün bütün lazımi tədbirlər vaxtında həyata keçirilib. Səpinə mütəşəkkil başlayan əkinçilər qısa müddətdə 2 min 500 hektar sahəyə çiyid səpiblər. Məhsul istehsalçıları müqavilə bağladıqları "Neftçala İ.K" MMC və "Aqrolizinq" ASC tərəfindən göstərilən hərtərəfli dəstəkdən yararlanaraq, səpini optimal müddətdə başa çatdırmaq üçün bütün qüvvələrini sərf edirlər.

Ötən il 3 hektar pambıq sahəsinin hər hektarından 30 sentner məhsul toplayan Boyat kənd sakini Qulammirzə Abıyev bu günə kimi əkəcəyi 10 hektar pambıq sahəsinin 5 hektarında səpin aparıb. "Ağ qızıl" ustası bu il becərdiyi sahənin hər hektarından azı 35 sentner məhsul götürmək niyyətindədir. Pambıqçı bu istəyinə çatmaq üçün səpini aqrotexniki qaydalara uyğun həyata keçirir.

Qeyd edək ki, ötən il neftçalalı pambıqçılar 7 min hektar pambıq sahəsindən 9 min 900 ton məhsul toplayıblar.

Cəbhə bölgəsində yerləşən Ağdam rayonunda da fermer və torpaq mülkiyyətçiləri çiyid səpinini davam etdirirlər. Ağdam pambıqçıları artıq 2254 hektarda səpin həyata keçiriblər. Bu il rayonda 2600 hektarda çiyid səpilməsi nəzərdə tutulub. Rayonda fəaliyyət göstərən "MKT İstehsalat Kommersiya" MMC, "Azərpambıq" MMC və "P-Aqro" MMC ilə bağlanan müqavilələrə əsasən, pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin edilirlər. Səpin işlərinin bir neçə günə başa çatdırılması nəzərdə tutulur. Xatırladaq ki, 2018-ci ildə Ağdam rayonunda 3100 hektar sahədə pambıq əkilib, 5822,2 ton məhsul istehsal olunub.

Kürdəmir rayonunda da çiyid səpini kampaniyası davam edir və indiyədək 1958 hektarda əkin aparılıb. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, cari mövsümdə 2809 hektarda çiyid səpilməsi nəzərdə tutulub. Hazırda əkin kampaniyasında 40-dan çox səpin aqreqatından istifadə olunur. Fermerlər əkini mayın 5-dək başa çatdırmaq əzmindədirlər. Qeyd edək ki, ilkin səpin aparılan 200 hektardan çox sahədə normal çıxış alınıb.

Salyan rayonunda da çiyid səpini uğurla davam edir. Rayonda bu mövsüm 4 min 788 hektar sahədə pambıq əkilməsi nəzərdə tutulub. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, səpin başlayandan bu günə kimi rayon üzrə 1526 hektar sahəyə çiyid səpilib. Son günlər havaların təsərrüfat işləri üçün əlverişli keçməsindən istifadə edən məhsul istehsalçıları gün ərzində 350-400 hektar sahədə çiyid səpini aparırlar. Əkinçilər müqavilə bağladıqları şirkətlər tərəfindən göstərilən hərtərəfli dəstəkdən yararlanaraq səpini qısa müddətdə başa çatdırmağa səy göstərirlər. Əkinçilərin çiyid səpini və digər kənd təsərrüfatı işləri ilə bağlı qarşılaşacaqları çətinlikləri operativ şəkildə aradan qaldırmaq məqsədilə təcrübəli aqronom və digər kənd təsərrüfatı mütəxəssislərindən ibarət xüsusi qərargah yaradılıb.

Dövlət tərəfindən pambıqçılığın inkişafına göstərilən hərtərəfli qayğı fermerlərin bu sahəyə olan marağını ilbəil artırıb. Hazırda rayonda iri fermerlərlə yanaşı, 4-5 hektar pay torpağı olan təsərrüfat sahibləri də "ağ qızıl" yetişdirməyə başlayıblar.

Qeyd edək ki, ötən il rayonda 7 min 55 hektar sahədə pambıq əkilib və 10 min 356 ton xam pambıq tədarük olunub.

**Nardar BAYRAMLI**

# Regionlarda müasir idman komplekslərinin tikintisi istiqamətində işlər sürətlə davam etdirilir

*Tərtər və Yardımlı rayonlarında tikilməkdə olan idman komplekslərində işlərin yarıdan çoxu başa çatdırılıb*









Azərbaycanda idmanın inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu kompleks tədbirlərə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən mövcud idman qurğularının qorunub saxlanılması, yenidən qurulması, beynəlxalq standartlara uyğun yeni stadionların, Olimpiya İdman komplekslərinin tikilib istifadəyə verilməsi daxildir.

Gənclər və İdman Nazirliyinin maliyyə və maddi-texniki təchizat şöbəsinin sektor müdiri Elmir Mehdiyev AZƏRTAC-a müsahibəsində bildirib ki, son illərdə respublikamızın şəhər və rayonlarında 45 Olimpiya İdman Kompleksi, Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Stend Atıcılığı üzrə İdman Kompleksi və digər iri idman qurğuları tikilib istifadəyə verilib. İdmanın müxtəlif növləri üzrə Azərbaycan milli komandalarının təlim-məşq toplanışlarının, idmançıların gündəlik məşqlərinin, eləcə də beynəlxalq idman turnirlərinin, respublika və zona yarışlarının keçirildiyi bu idman obyektləri, eyni zamanda, əhalinin də ən çox üz tutduğu məkanlardandır.

Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, Gənclər və İdman Nazirliyinin sifarişi ilə hazırda Tərtər, Goranboy və Neftçala rayonlarında Olimpiya İdman komplekslərinin, Yardımlı İdman Kompleksinin tikintisi davam etdirilir. Eyni zamanda, dövlətimizin başçısının müvafiq Sərəncamına uyğun olaraq, Gəncə Şəhər İcra Hakimiyyətinin sifarişi ilə şəhərdə idman sarayının tikintisinə başlanılıb. Tərtərdə və Yardımlıda idman komplekslərinin inşası sürətlə davam etdirilir. Hər iki kompleksdə tikinti-quraşdırma işlərinin ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.

Tərtərdə Olimpiya İdman Kompleksinin təməli 2018-ci il fevralın 28-də qoyulub. Bu Olimpiya İdman Kompleksinin ərazisi 4 hektar, tikintialtı sahəsi 7320 kvadratmetrdir. Ümumi sahəsi 10 min 792 kvadratmetr olacaq bu idman qurğusunun əsas binasında 1000 tamaşaçı tribunası olan, müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulan universal idman, üzgüçülük, güləş, boks və trenajor zalları, 54 yerlik mehmanxana korpusu, restoran, mətbəx və digər texniki-yardımçı otaqlar olacaq. Baş plana uyğun olaraq, ərazidə açıq idman meydançaları, stadion da yaradılacaq. Kompleksdə işlərin demək olar ki, 60-65 faizi görülüb.

Qeyd edək ki, Prezident İlham Əliyev bu il fevralın 2-də "Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Yardımlı şəhərindəki Heydər Əliyev prospektində inşa edilən idman kompleksində də işlər qrafikə uyğun yüksək keyfiyyətlə davam etdirilir. Burada əsas binanın tikintialtı sahəsi 3550 kvadratmetr, ümumi sahəsi 5436 kvadratmetr olacaq. Binada 800-ə yaxın tamaşaçı tribunası olan universal idman zalı, eləcə də güləş, boks, trenajor (fitnes), bilyard və stolüstü idman oyunları zalları nəzərdə tutulub. Burada 37 yerlik mehmanxana, kafe-restoran fəaliyyət göstərəcək. Ərazidə açıq tipli minifutbol, voleybol meydançalarının və yardımçı tikililərin inşası planlaşdırılıb. Hazırda kompleksdə tikinti işlərinin 50-55 faizi yekunlaşmaq üzrədir.

Fiziki imkanları məhdud tamaşaçıların və idmançıların hər iki kompleksdən tam və təhlükəsiz istifadə etmələri üçün zəruri şərait yaradılacaq.

Regionlarda idmanın inkişafı, bölgələrdə yaşayan gənclərin sağlam həyat tərzi sürmələri, onların idmanla sərbəst məşğul olmaları üçün Olimpiya İdman kompleksləri mühüm rol oynayır.

# Bakcell "Facebook" üzərindən müraciətlərin cavablandırılmasında yüksək nəticə göstərib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti abunəçilərin müraciətlərinin "Facebook" üzərindən effektiv cavablandırılmasına görə növbəti dəfə "Socially Devoted" sertifikatı alıb.

Böyük şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqini həyata keçirən "Socialbakers" şirkəti 2019-cu ilin I rübündə daxil olan sorğuların Bakcell tərəfindən 100%-ni cavablandırdığını qeyd edib.

Bakcell şirkəti son bir neçə ildə abunəçi müraciətlərini 100% cavablandıraraq ən yüksək nəticəyə nail olub.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Sosial şəbəkələr məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və abunəçilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir.




# Azercell-in əsas tərəfdaş olduğu IV Buktreyler Festivalının qala gecəsi keçirilib



Kitab və mütaliənin cəmiyyətimizdə təbliği, mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin (rejissor, operator, rəssam, aktyor, qrimçi və s.) üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafı məqsədlərini daşıyan IV Buktreyler Festivalının qala gecəsi keçirilib. Hər zaman yenilikçi təşəbbüsləri dəstəkləyən Azercell şirkəti festivalın əsas tərəfdaşı qismində çıxış edib. Festivalın təşkilati dəstəkçiləri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, təsisçisi və direktoru isə kinoaktyor Ruslan Sabirlidir. Qeyd edək ki, qalib buktreylerlər tanınmış incəsənət xadimlərinin daxil olduğu münsiflər heyəti tərəfindən dəyərləndirilmə əsasında seçilib.

Tədbirdə çıxış edən "Azercell Telekom" MMC-nin Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya rəqəmsallaşan dünyada kitabın ömrünün uzadılması, intellektual mədəniyyətin təbliği, mütaliənin, kitaba sevginin aşılanması kimi mühüm məqamların şirkət üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb, bu tip təşəbbüslərin dəstəklənməsinin zəruri olmasını qeyd edib.

Qeyd edək ki, Elxan Elatlının "On dördüncü adam" romanına Sadiq Fərzəlibəylinin çəkdiyi buktreyler Azercell şirkəti tərəfindən "Ən Yaxşı Mobil Buktreyler" nominasiyası üzrə qalib seçilib və 1.000 AZN ilə mükafatlandırılıb. Qalib seçilən buktreyler və mükafatlar barədə ətraflı məlumatı https://www.booktrailer.az/ rəsmi internet səhifəsindən əldə etmək mümkündür.

Vurğulamaq istərdik ki, Azercell mütaliə mədəniyyətinin inkişafına, ədəbi irsimizin təbliğinə öz töhfəsini vermək üçün 2015-ci ildə Bookmate xidmətini abunəçilərin istifadəsinə təqdim edib. 850000-dən artıq kitabı özündə cəmləyən bu zəngin kitabxana mütaliəsevərlər arasında böyük rəğbətlə qarşılanıb. 2018-ci ildə isə Azercell tərəfindən Bookmate tətbiqi çərçivəsində kitabları səsli formatda dinləmək imkanı verən Audio kitab xidməti istifadəyə verilib. İlkin olaraq, klassik ədəbiyyat incilərimizin doğma dilimizdə səsləndirilərək, yer aldığı bu xidmətə gələcəkdə müsair ədəbiyyat nümunələrimiz də əlavə olunacaq.

## İTMİŞDİR

Azərbaycan Dövlət İqtisad Universitetinin texnologiya və dizayn fakültəsinin I kurs tələbəsi Əhmədova Səba Səyavuş qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj:** **4820**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU